# BİR BƏDƏN-BİR ÜRƏK

***Nişanlı və evli cütlüklər üçün***

***Allahın Kəlamından Dərslər***

Bu kitabı şəxsi istifadə üçün çap etmək istəyirsinizmi?
Yaxud istifadə etmək üçün cihazınıza endirmək istəyirsinizmi?

Bu dərslərin hamısını azərbaycan dilində və digər dillərdə **www.learnhisways.com** saytından pulsuz endirə bilərsiniz.

Bütün kəlamlar MÜQƏDDƏS KİTAB-dan gürtürülmüşdür. © MÜQƏDDƏS KİTAB (Əhdi-Ətiq və Əhti-Cədid) Əhti-Ətiq © MKŞ 2004, 2006, 2009 (təkrar yoxlanılmış) Əhti-Cədid © MKŞ 2009 (yeni tərcümə)

Translated from the English
***One Flesh-One Heart***

***Studies from God's Word for Engaged and Married Couples***

© 2015 Life Resources

***Rəbb Allah yenə dedi: “İnsanın tək olması yaxşı deyil,***

***Mən ona münasib olan bir köməkçi yaradacağam”.***

**Yaradılış 2:18**

## Mündəricat


**BAŞLAMAZDAN ƏVVƏL .....................................................................6**

**1. NİKAH HARADAN BAŞLAMIŞDIR? Müqəddəs Kitabda nikahın əsasları ..................................................................................................8**

Bu dərs Müqəddəs Kitabda nikah haqqında ilk kəlamları araşdırır. Kitabdakı digər dərslərdən əvvəl bu dərsi keçməyiniz məsləhət görülür.

**2. XOŞBƏXT AİLƏ ÜÇÜN ALLAHIN PLANI ....................................13**

Həvari Paul, məsihçilərin nikah münasibətləri qurmağa dair xüsusi göstərişlər vermişdir. Müdrik ərlər və arvadlar 2000 ildir onun sözlərinə ciddi diqqət yetirmişlər.

**3. İSANI AİLƏNİZİN RƏBBİ OLARAQ QƏBUL ETMƏK ..............16**

Ər və arvad ikisi də İsanı həyatlarına Rəbb olaraq qəbul edəndə, həyatlarının bütün sahələrində: öz pullarından, vaxtlarından necə istifadə etmək, karyera və necə yaşamaq barəsində İsanın onlara yol göstərəcəyinə etibar edirlər. İsa *sizin* ailənizin Rəbbidirmi?

**4. NİKAHDA İNTİM ƏLAQƏ: ALLAHIN GÖZƏL PLANI .............21**

Cinsi elaqe erle arvada Allah terefinden verilen gözel bir hediyyedir. Ər və arvad bunu ömürləri boyunca xüsusi əlaqə olaraq necə qoruyub saxlaya bilərlər?

**5. NİKAHINIZI QİYMƏTLƏNDİRİN VƏ QORUYUN ....................26**

Nikahınız sizin üçün nə qədər önəmlidir? Nikahınızı zinadan, boşanmadan və zehindəki cinsi əxlaqsızlıqdan necə qoruya bilərsiniz?

**6. BAĞIŞLAMA: UZUN VƏ XOŞBƏXT NİKAHIN AÇARI .............31**

Nikah romantikadan başlaya bilər, lakin bağışlama evli cütlüyün məhəbbətini ildən-ilə qüvvətli saxlayır. Bağışlamağı və üzr istəməyi öyrənmək asan deyil, lakin bu məhəbbət işlərini hər cütlük mütləq öyrənməlidir.

**7. ÜRƏYİNDƏ SEVGİ OLMAYAN ZAMANLARDA BELƏ SEVMƏ QƏRARI: Nikahda mübahisələrin həlli ..........................................40**

Cütlüklər bağışlamağı öyrənməklə yanaşı hər gün bir-birinə şərtsiz məhəbbət göstərməyi öyrənməlidirlər. Ər və ya arvad inciyəndə, yaxud aralarında ciddi fikir ayrılığı meydana gələndə, dərdlərini bir-biri ilə necə məhəbbətlə bölüşə və açıq ürəklə bir-birini necə dinləyə bilərlər?

**8. ALLAHLA MÜNASİBƏTDƏ BİRGƏ BÖYÜMƏK .........................49**

Allahla münasibətimizi şəxsi işimiz hesab etmək asandır. Lakin Allaha birlikdə ibadət və xidmət etməyi öyrənən ailə daha böyük sevincə nail olur. Bu dərs hər gün Allahın məhəbbətini ailənizin mərkəzinə gətirmək üçün sizə faydalı məsləhətlər verəcək.

# Başlamazdan əvvəl...

Bu kursu oxuyursunuzsa, deməkya evlisiniz, ya da tezliklə evlənmək niyyətindəsiniz. Sizi təbrik edirik! Əsrlər boyunca dünyanın bütün mədəniyyətlərində mövcud olan və bəşəriyyətin ən qədim adətlərindən biri olan nikahda insanların əksəriyyətinin təcrübəsinə siz də şərik olursunuz. Ancaq şərik olduğunuz bu adət nədir? Nikah ideyası haradan meydana gəlib? Nikah yalnız mənim hayatımın daha asan və zövqlü olması üçün mövcuddur, yoxsa daha yüksək bir məqsədi vardır?

Ailə quran kişilərin və qadınların əksəriyyəti gələcəyə böyük ümidlərlə baxır. Ancaq bu gün gerçəklik belədir ki, bir çox ailələr dağılır. Dağılmayan ailələrin çoxunda da ər və arvad birlikdə olmağına baxmayaraq aralarında sevinc və həqiqi məhəbbət az olur. Niyə? Bəs niyə ümidləri həyata keçməyib? Ümumiyyətlə ömür boyunca davam edən dərin, isti və canlı münasibətlər mümkündürmü?

Bu sualın cavabı BƏLİ, mümkündür!!! Allahın Müqəddəs Kitabda yazılmış olan planına görə yaşamağa hazır olan hər kəsin nikahda bol bərəkətli münasibətlərə malik olacağına çox böyük ümid vardır. Bu kurs, yuxarıdakı sualların cavabını tapmaqda və Allahın nikahınız üçün düşündüyü bütün heyranedici məqsədlərinə çatmaqda sizə kömək edəcəkdir.

Hər dərsdən tam şəkildə faydalanmaq üçün bir neçə məsləhətimiz var:

- **Mümkünsə, bu kursu yalnız bir cütlük olaraq keçməyin.** Məsləhətçiniz olaraq sizinlə birlikdə bu kursun təcrübəli və uğurlu nikahı olan bir cütlük tərəfindən aparılması yaxşı olar. Bir neçə ildir evlənmiş bir cütlük olsa daha yaxşı olar. Yaxud bir neçə cütlüklə birgə qrup şəklində bu kursu keçə bilərsiniz, bu halda daha yaşlı bir cütlük müzakirələrdə rəhbərlər kimi xidmət edə bilərlər. Üstəlik həm ərin, həm arvadın (yaxud bir-biri ilə ailə qurmaq istəyən qızla oğlanın) birgə iştirak etməsi çox vacibdir. Hər dərsdə həm kişilərə, həm də qadınlara aid material vardır.
- **Hər dərsdə verilən yazılı tapşırıqları yerinə yetirin.** Bu, çox önəmlidir. Hər bir iştirakçının (təkcə hər cütlüyün deyil) qeyd və tapşırıqları yazması üçün öz dəftəri olmalıdır. Bahalı bir dəftərə gərək yox, amma yalnız bu kurs üçün uzun müddət qoruyub saxlaya biləcəyi ayrı bir dəftəri olmalıdır. Hər dərsin sonunda növbəti dərsə qədərki günlərdə çalışacağınız tapşırıqlar verilir. **Bu tapşırıqları yerinə yetirməsəniz, bu kursdan tam faydalana bilməzsiniz!** O tapşırıqlara xeyli vaxt sərf edəcəksiniz, amma buna vaxt ayırmağa dəyər. Bu dəftərə yazdıqlarınızı gələcək illər ərzində oxumaq və bəlkə də zamanla öyrənəcəyiniz yeni fikirləri oraya əlavə etmək istəyərsiniz.

- **Hər dərsə dəftərinizi və Müqəddəs Kitabı (çap və ya elektron formatda) gətirin.** Hər dərsdə Allahın kəlamından oxuyacaqsınız. Yaxşısı budur ki, *hər kəsin* öz Müqəddəs Kitabı olsun və müzakirə olunan yerlərə diqqətlə baxa bilsinlər. Bundan əlavə, sizdən tez-tez dəftərinizdə nə barədəsə qeydlər yazmaq xahiş ediləcək. Hər dərsin başında keçən dərsdə verilmiş tapşırıqla necə məşğul olduğunuzu müzakirə etməyinizə imkan veriləcək.

**ALLAH BU ÖLKƏYƏ ONUN İZZƏTİ ÜÇÜN YAŞAYAN, MÖMİN ÖVLADLARI BÖYÜDƏN MÖMİN AİLƏLƏRİN YENİ NƏSLİ İLƏ XEYİR-DUA VERSİN!**

# 1. Nikah haradan başlamışdır?

## *Müqəddəs Kitabda nikahın əsasları*

**Müzakirə üçün suallar:**

"Nikah" sözünü düşünün. Bu söz sizin üçün nə məna daşıyır? Nikahı bütün başqa münasibətlərdən fərqləndirən nədir?

**Giriş:**

Nikah müəyyən formada bu dünyada hər cəmiyyətin bir hissəsi olur. Amma nikah nə deməkdir? Nikah haradan başlayıb? Bu dərsdə Müqəddəs Kitabın bu suallara nə cavab verdiyini öyrənəcəyik.

Yaradılış 1-də Allahın yeri, göyü, günəşi, ayı, ulduzları, bitkiləri və heyvanları necə yaratdığını oxuyuruq. Sonra 26-cı ayədə yaradılışının tacı haqqında oxuyuruq.

**Yaradılış 1:26-31-i oxuyun.**

1. 27-ci ayəni təkrar oxuyun. Bu ayədə insanın yaranması ilə bağlı hansı iki həqiqəti görə bilirsiniz?

   Sizcə, Allahın surətində yaranmağımız nə deməkdir?

2. 31-ci ayəyə baxın. Allah yaratdığı hər şeyə baxanda nə hiss etdi?

Yaradılış Kitabının 2-ci fəslində ilk kişi və qadının yaranması daha ətraflı təsvir olunur.

**Yaradılış 2:7 və 15-25-i oxuyun.**

3. 7-ci ayəni təkrar oxuyun. Allahın insanı yaratması bütün başqa heyvanları yaratmasından necə fərqlənir? (Həmçinin bax: Yaradılış 1:20 və 24)
4. Yaradılış 2:18-də Allah nəyə "yaxşı deyil" deyir? Allah nə edəcəyini söyləyir?
5. 21-22-ci ayələri təkrar oxuyun. Allahın kişiyə bir köməkçi yaratdığını təsvir edin.

**Qadın köməkçi qismində**

18-ci ayədə Allah kişiyə "münasib olan bir köməkçi" yaradacağını söyləyir. Sonra 20-ci ayədə deyir ki, heyvanlar arasında kişiyə "münasib olan bir köməkçi" tapılmadı. "Köməkçi" dedikdə nə nəzərdə tutulur? Orijinalda işlənən ibranicə söz (Əhdi-Ətiqin orijinalı ibranicədir) kömək etdiyi şəxsi tamamlayan bir şəxs mənasına gəlir. Yəni başqa şəxsin əskiklərini dolduran, təmin edən

bir şəxs nəzərdə tutulur. Köməkçi, kömək etdiyi şəxsdən aşağı deyildir. Onlar eyni dəyərə malik, lakin fərqli şəxsiyyətlərdir. Bir-birinin əskikliklərini tamamlayırlar.

Kəlam həmçinin köməkçinin kişiyə "münasib" və ya "uyğun" olduğunu bildirir. Qadın, kişinin əsl ehtiyacı olan bir şəxs idi. Kişinin həyatındakı boşluğu doldura biləcək yeganə şəxs olaraq yaranan qadından başqa o boşluğu heç nə - heç bir heyvan doldura bilməzdi. Sizcə, əgər hər ər və arvad bu həqiqətləri dərk etsə, ailələrindəki atmosfer necə dəyişəcək?

6. 23-ci ayəni təkrar oxuyun. Bu ayədə kişi qadını necə təsvir edir? Sizcə, o, qadının ona münasib bir köməkçi olduğunu hiss edirmi? Cavabınızı izah edin.

**Qeyd:** ibrani dilində qadın (*işşa*) və kişi (*iş*) eyni mənşəli sözlərdir. Beləcə ibrani dilində bu sözlərin içində kişi ilə qadın arasındakı əlaqə göstərilir.

7. İndi biz Müqəddəs Kitabda nikahın ən birinci təsvirinə gəlib çatmışıq. 24-cü ayəni oxuyun. Nikah necə təsvir olunur? Bu ayəyə əsasən hansı üç şey nikahı təşkil edir?

8. Görünür ki, Adəmin tərk edə biləcəyi ata-anası yox idi, lakin bu, bütün gələcək nəsillərə aid bir həqiqət idi. Sizcə, kişinin ata-anasını tərk edib arvadına qovuşması nə deməkdir? Niyə bu önəmlidir?

9. Sizcə, fiziki olaraq ata-anasını tərk etmiş, yəni ayrı bir evdə yaşayan bir kişinin hələ də ata-anasının səlahiyyəti altında qalması mümkündürmü? Bu, necə ola bilər?

   Kişinin həqiqətən öz ailəsinin başçısı olması niyə vacibdir?

**Yeni bir ailə üçün Allahın planı**

Başlanğıcdan gördüyümüz kimi, Allahın planına görə bir kişi ilə bir qadın ər və arvad olaraq birləşərək, böyüdükləri ailələrindən ayrı olan yeni bir ailəni qururlar. Arvadın ata-anasını tərk etməsi barədə heç nə yazılmayıb, bəlkə də ona görə ki, o zamanlarda ərə gedən qadın bir qayda olaraq öz doğma evini tərk edərdi. Ər isə çox vaxt valideynlərinə məxsus olan torpaqda yaşamağa davam edərdi. Buna görə də evli kişi öz ata-anasına yaxın qala bilərdi.

Bununla belə, o artıq onların səlahiyyətləri altında qalmamalı idi. Evləndikdən sonra yeni ailənin başçısı olmalı idi. Məsuliyyəti, öz ailəsini yeməklə təmin etməkdən, qorumaqdan, onlara Rəbbin yolunu tutmağı öyrətməkdən ibarətdi. Kişi hələ də ata-anasının müdrikliyindən, təcrübələrindən öyrənə bilərdi, ancaq evləndikdən sonra o, arvadı ilə birgə ayrı bir ailə qururdu və bu ailədə ər və arvad öz qərarlarını verməli və öz övladlarından məsuliyyət daşımalı idilər. Bu düşüncə tərzinin sizin ölkənizdəki ailələrin möhkəmləndirilməsinə necə yardım edə biləcəyini müzakirə edin.

Əgər siz evli cütlük olaraq bir müddət valideynlərinizin yanında qalmalısınızsa, onların evində yaşayarkən necə özünüzü ayrı ailə kimi apara bilərsiniz?

10. 24-ci ayəni təkrar oxuyun. Kişinin arvadına qovuşması olaraq tərcümə olunan orijinal ibranicə söz arvadına "möhkəm bağlanması" və ya arvadını "səylə (yaxından) izləməsi" mənasına gəlir. Bu sizə nikahın dəyişməzliyi barədə nə deyir?

11. Hal-hazırda bəzi yerlərdə insanların nikah haqqındakı fikirləri çox qarışıq olur. Bəziləri deyirlər ki, kişi başqa kişi ilə və ya qadın başqa qadınla ailə qura bilər. Bəziləri bir kişinin birdən çox qadınla ailə qura biləcəyini söyləyirlər. Yaradılış Kitabındakı bu ayələrdən Allahın nikah üçün planını necə görürsünüz?

12. Qayıdıb Yaradılış 1:28-i təkrar oxuyun. Allahın bəşəriyyətə verdiyi birinci əmr nədir? Allah nikahdan nə cür bəhrə gözləyir?

    Bu ayənin başında Allahın ilk kişiyə və qadına xeyir-dua verdiyindən bəhs edildiyini görəcəksiniz. Bu xeyir-duanın mühüm bir hissəsi "Törəyib çoxalın və yer üzünü bürüyün" idi. Bu ayədə Allahın nikah yaratmasının başqa mühüm bir səbəbini görürük. Bir-birinə ömürlük sədaqətlə həsr olunan bir ana və bir ata üçün Allahın planı uşaqlarımızı necə sabit bir mühitlə təmin edir?

**Evlənmə şənliyi**

Dünyanın müxtəlif yerlərində evlənmə şənliyi başqa cür görünür. Bəzi mədəniyyətlərdə çox mürəkkəb rituallar yerinə yetirilir və günlərlə davam edən ziyafətlər qurulur. Demek olar ki, evlenme günlerini (toylarını) şenliksiz keçiren cemiyyetler de var. İbtidai mədəniyyətlərin birində kişi sadəcə olaraq qadının asma çarpayısına girir və sonra onların ömrünün axırına kimi bir-birinə sadiq qalacağı gözlənilir. Yaradılış 24:67-yə baxın. İshaq, atasının nökərinin ona gəlin olaraq gətirdiyi Rivqa ilə necə evləndi?

Bu iki halda heç bir şənlik, mərasim, yaxud sənəd olmasa da, cəmiyyət cütlüyü bir-birinə məxsus olan kişi və qadın olaraq tanıdı. Cütlüyün belə tanınması, evlənmənin mühüm bir hissəsidir. Bu gün hökumətlərin əksəriyyəti nikahın tanınması üçün müvafiq rəsmi sənədi tələb edirlər. Bu, xüsusən uşaqların qorunması üçün çox mühümdür.

Miladdan sonraki əsrlərdə imanlılar evlənmə mərasimində Allahın kəlamındakı bu təlimlərin əks olunması üçün yollar axtarmışlar: nikah Allahdandır; nikah müqəddəsdir; nikah həyat yoldaşının ölümünə qədər davam etməlidir; və nikah Məsihlə münasibətlərimizin bir obrazıdır. Bu gün qüvvətli məsihçi köklərinə malik olan mədəniyyətlərdə bəy ilə gəlinin əhdləşməsi, yəni bir-birinə vəd verməsi, ailə üzvləri və dostlarının qarşısında bir-birini sevdiklərini və ömrünün axırına qədər bir-birinin qayğısına qalacağını elan etməsi ənənəvi mərasimə daxildir. Kişi ilə qadını ər-arvad olaraq birləşdirən şəxs Allah olduğuna görə, sizcə, bir-birinizə həsr olunduğunuzu rəsmi surətdə elan etməyiniz niyə önəmli ola bilər? Bunun nikahınızı necə möhkəmləndirə biləcəyini bir neçə dəqiqə müzakirə edin. (Nikah əhdlərinin nümunəsi üçün bax: Əlavə A, səh. 55.)

**Dua:** Allahın bəşəriyyətə bəxş etdiyi gözəl nikah hədiyyəsini düşünün. İndi dua edin və duada nişanlınıza/həyat yoldaşınıza görə Allaha şükür edin. Bir-birinizə qarşı Məsihin məhəbbətinə bənzər bir məhəbbətlə dolu ailə qurmaq və nikahınızı ömrünüzün axırına qədər möhkəmləndirmək üçün duada Allahdan lütf diləyin.

## Növbəti dərsdən əvvəl...

**...**bu gün öyrəndiyiniz ayələri təkrar oxumağa və düşünməyə bir az vaxt ayırın. Allahdan nikah barədə daha dərin anlayışı diləyin.

- Bu ayələrdən nikah haqqında öyrəndiklərinizi dəftərinizdə yazın.
- 20, 30 və ya 50 il sonra nikahınızı necə görmək istədiyinizi yazın.

Bu sitatı düşünün:"İnsanlar əhd edərək özlərini bir-birinə həsr etdikləri zaman əhdinə sadiq qalan Allaha ən çox bənzəyərlər". (İngilizcə "Reformation Study Bible" nəşri, Yaradılış 2:24)

- Bunun fikrinizcə nə məna verdiyini dəftərinizdə yazın.

Həmçinin duada Allahdan diləyin ki, bu ciddi ömürlük həsr olunmaya hazırlasın, yaxud artıq evlisinizsə, hər gün bu həsr olunmaya görə yaşamağınıza kömək etməsini diləyin.

**(Növbəti dərsə gələndə dəftərinizi və Müqəddəs Kitabınızı gətirməyi unutmayın.)**

# 2. Xoşbəxt ailə üçün Allahın planı

***"...qoy hər kəs öz arvadını özü kimi sevsin, arvad isə ərinə ehtiram etsin."***
***Efeslilərə 5:33***

**Bu dərsə başlamazdan əvvəl:**

Keçən həftə 1-ci Dərsdə öyrəndikləriniz, nikahınız üçün arzularınız və sitat haqqında dəftərinizə yazdığınızı bir neçə dəqiqə müzakirə edin. (Çalışın, bu müzakirə 5 dəqiqədən çox uzanmasın ki, dərsin qalan hissəsinə kifayət qədər vaxtınız qalsın.)

**Müzakirə üçün suallar:**

Paul Filipililərə Məktubunda imanlılara bir-birinə necə münasibət göstərəcəklərini öyrədir. Filipililərə 2:1-4-ü oxuyun. Paulun bu ayələrdə məsihçilərə verdiyi nəsihətləri bir neçə dəqiqə müzakirə edin.

Sizcə, bu ayələrdə sadalanan şeylər necə xoşbəxt ailə üçün yaxşı təməl ola bilər?

**İndi Paulun arvadlara və ərlərə verdiyi nəsihətlərə nəzər salaq.**

**Efeslilərə 5:21-33-ü oxuyun.**

1. 21-ci ayədə hər kəsin Məsih qorxusu ilə bir-birinə tabe olması əmr olunur. 22-ci ayədən başlayaraq Paul, ailədə razılıq və səadətin hökm sürməyinə şərait yaradan bu tabeliyin ərlər və arvadlar üçün konkret olaraq nədən ibarət olduğunu izah edir.

   22-ci ayəni təkrar oxuyun. Arvadın ərinə qarşı münasibəti necə olmalıdır?

2. 23-24-ci ayələri oxuyun. 23-cü ayəyə əsasən, niyə qadın ərinə belə münasibət göstərməlidir? Paul bu ər-arvad münasibətini nəyə bənzədir?

(**Qeyd:** Burada "cəmiyyət", yaxud "imanlılar cəmiyyəti" dedikdə bütün nəsillərdə hər yerdə olan bütün imanlılar nəzərdə tutulur. Bu ayələrdə onlara həmçinin "Məsihin bədəni" deyilir.)

   24-cü ayədə Paul bu tabeliyi necə təsvir edir?

   Arvadlar üçün sual: Sizcə, bu növ tabelik necə mümkündür?

3. 25-27-ci ayələri təkrar oxuyun. Ərin arvadına qarşı münasibəti necə olmalıdır? Paul bu münasibəti nəyə bənzədir?

   Bu ayələrə əsasən, Məsih cəmiyyətinə olan məhəbbətini necə göstərmişdir?

   Məsihin gördüyü işlərdə imanlılar cəmiyyəti üçün nə məqsədi var idi? (26-27-ci ayələr)

4. İndi 28-30-cu ayələri oxuyun. 28-ci ayədə Paul kişinin öz arvadını sevməsi haqqında nə deyir?

   Sizcə, Paul "Arvadını sevən özünü sevir" dedikdə nə nəzərdə tutur?

   25, 29 və 30-cu ayələrdə Paul ondan danışır ki, Məsih bizə olan məhəbbətini necə göstərib və bizi Öz Gəlini kimi həmişə bəsləyib qayğımıza qalmaqla bu məhəbbəti necə göstərməyə davam edir. İndi isə O, ərləri arvadlarını eyni məhəbbətlə sevməyə çağırır.

   Ərlər üçün sual: Siz bu yüksək çağırışınızı düşünəndə nə hiss edirsiniz? Gündəlik həyatda arvadınıza fədakar məhəbbət göstərmək üçün indi əməldə nə etməyə başlaya bilərsiniz?

5. 31-33-cü ayələri təkrar oxuyun.  31-ci ayədə Paul, keçən dərsdə oxuduğumuz Yaradılış 2:24-dən sitat gətirir. Allahın başlanğıcdan bəri, hələ günah dünyaya daxil olmamışdan nikahın dərin məna daşıması ilə bağlı bir planı var idi.

   32-ci ayədə Paulun bəhs etdiyi böyük sirr nədir? Ər-arvad birləşməsində Məsihlə bizim (İmnalılar Cəmiyyəti) aramızdakı münasibətlər necə əks olunur?

   Bu həqiqətin əsasında bu ayədə ər-arvad münasibətlərinin qorunmasının əhəmiyyəti haqqında nə deyilir?

6. 33-cü ayədə Paul ərlərə və arvadlara nəsihətlərini necə yekunlaşdırır?

   Sizcə, niyə Paul ərlərə və arvadlara fərqli nəsihətləri verir?

**Nikahda məhəbbətin və hörmətin yeri**

Müasir tədqiqatlar göstərir ki, həm ər, həm arvad hörmət və məhəbbət görməyi arzu etsə də, onların ən dərin ehtiyacları fərqlidir. Ər üçün arvadın hörmətini hiss etmək daha önəmlidir. Ən yaxın yoldaşı ona hörmət etmirsə, o özünü son dərəcə xəcil və dəyərsiz hiss edəcək. Xüsusilə arvadı ona insanlar içində hörmət etmirsə belə olur, lakin evin içində də belədir. Arvad üçün ərin məhəbbətini hiss etmək daha önəmlidir. Ərinin onu sevdiyini hiss etməyən qadın özünü son dərəcə xəcil və dəyərsiz hiss edəcək. Ərinin onu sevdiyini bilməsi qadına özünü arxayın, əmin hiss etməkdə kömək edəcək.

7. İndi bunları düşünün və müzakirə edin: Arvadın, İmanlılar Cəmiyyəti Məsihə tabe olduğu kimi öz ərinə tabe olması, əri onu sevməyə necə təşviq edəcək?

Ərin, Məsihin İmanlılar Cəmiyyətini sevdiyi kimi öz arvadını sevməsi, arvadının ona tabe olmasına necə kömək edəcək? Bu iki şey birlikdə necə xoşbəxt və nizamlı ailəni yaradır?

8. Öz ailəniz üçün arzularınızı düşünün. Bu arzuların həyata keçməsi üçün özünüzdə nə cür dəyişmə görmək istəyirsiniz? Əgər qadınsınızsa, bəzən ərinizin rəhbərliyini rədd edib özünüz ailəni idarə etmək istəyirsinizmi? Əgər kişisinizsə, bəzən kobud və tələbkar olursunuzmu?

**Ailədən bir sığınacaq yaratmaq**

Allahın məqsədinə görə qurulan ailə Allahın Padşahlığının gözəl bir surəti olacaq. Əlbəttə, heç kim bunu mükəmməl edə bilməz! Buna görə özümüzü alçaltmağı, bacarmayanda üzr istəməyi və bir-birimizi tez bağışlamağı öyrənməyimiz də çox vacibdir. Belə halda ailə həm bizim üçün, həm də Allahın bizə verdiyi övladlarımız üçün bir sülh sığınacağı olacaq. (6-cı dərsdə bundan daha ətraflı bəhs ediləcək.)

**Dua:** İndi duaya bir az vaxt ayırın və Allahın gözəl məqsədinə görə yaşamaq üçün lütfü ilə dəyişilməyinizi Ondan diləyin. Ürəyinizdə Onun yollarını öyrənməyi qərara alın. Onda çətin vaxtlarda belə, ailənizdə sülh və razılıq olacaq.

## Növbəti dərsdən əvvəl...

**...** təzəcə öyrəndiyiniz ayələri təklikdə təkrar oxuyub düşünün.

- Ər və ya arvad olaraq öz rolunuz haqqında bu ayələrdən öyrəndiklərinizi dəftərinizdə yazın.
- Eləcə də Allahı razı salan ər və ya arvad olmaq üçün özünüzdə nə cür dəyişiklikləri görmək istədiyinizi yazın.

Bu şeylərə görə dua etməyə vaxt ayırın.

Həmçinin 1 Peter 3:1-7-ni oxumaq üçün vaxt tapsanız yaxşı olar.

**(Növbəti dərsə gələndə dəftərinizi və Müqəddəs Kitabınızı gətirməyi unutmayın.)**

# 3. İSANI AILƏNIZIN RƏBBI OLARAQ QƏBUL ETMƏK

***"Amma mən və mənim evimdəkilər Rəbbə qulluq edəcək". Yeşua 24:15***

**Bu dərsə başlamazdan əvvəl:**

2-ci Dərsdə öyrəndiyiniz və dəftərinizə yazdığınız şeyləri bir neçə dəqiqə müzakirə edin. (5 dəqiqə)

**Müzakirə üçün suallar:**

Yeşua Kitabının 24-cü fəslində İsrail xalqı Yeşuanın rəhbərliyi ilə Allahın vəd etdiyi torpağı mülk olaraq almağa hazırlaşır. 15-ci ayədə Yeşua onlara meydan oxuyur: yaşayan Allaha qulluq etmək istəmirlərsə, hansı allaha qulluq edəcəklərini özləri seçsinlər. Yeşua isə özü üçün artıq seçmişdir və elan edir: "Mən və mənim evimdəkilər Rəbbə qulluq edəcək!"

Bir ailə olaraq Rəbbə qulluq etmək, sizcə, nə məna verdiyini qısaca müzakirə etməyə bir dəqiqə vaxt ayırın.

**Luka 6:46-49-u oxuyun.**

1. 46-cı ayədə İsa nə sual verir?

   Kimisə "Rəbbim" (yaxud "Sahibim") çağırmaq və eyni zamanda dediklərinə əməl etməməkdə bir ziddiyyət görürsünüzmü? Cavabınızı izah edin.

2. 47-ci ayəni təkrar oxuyun. İsa üç şey edən insanlardan bəhs edir. Bu üç şey nədir?

   48-ci ayəyə əsasən, İsa bunları edən adamı nəyə bənzədir? Bu adamın necə ev tikdiyini və axırda o evə nə olduğunu təsvir edin.

3. İndi 49-cu ayəni oxuyun.  Burada təsvir olunan adam (ev deyil) ilə 47-ci ayədəki adamın arasında nə fərq var?

   Bu adamın evini və bu evə sonunda nə olduğunu təsvir edin.

4. Bu iki evi düşünün. Siz yeni ailə qurarkən hansı evi tikmək istəyirsiniz? 46-47-ci ayələrə əsasən bu növ evi necə inşa edə bilərsiniz?

**İndi evli cütlük olaraq həyatınızda əhəmiyyətli olan bir neçə konkret məqama nəzər salaq. Bəlkə də keçmişdə bir imanlı kimi bu şeyləri düşünmüsünüz, amma indi bir ailə kimi düşünün: bu məqamların hər birində İsanın Rəbb olması nə deməkdir?**

**PUL**

5. Aşağıdakı ayələri oxuyun.

*"Kim Mənə bir şey verib ki, ona geri qaytarım? Bax göylər altında hər şey Mənimdir". (Allahın Əyyuba sözü, Əyyub 41:11)*

*Kim Ona bir şey verdi ki, əvəzini Ondan istəyə bilsin? Çünki hər şeyin mənbəyi Odur, hər şey Onun vasitəsilə və Onun üçün var oldu. Ona əbədi olaraq izzət olsun! Amin. (Romalılara 11:35-36)*

Siz heç düşünmüsünüzmü ki, nəyiniz varsa, hər şey sizə Allahdan verilib və qanuni surətdə Allaha məxsusdur?

Sizcə, bu bilik pul və digər mal-mülkdən istifadənizə necə təsir etməlidir?

6. Pul haqqında Müqəddəs Kitabdan aşağıdakı üç parçanı oxuyun.

*Rəbbi var-dövlətinlə, məhsulunun nübarı ilə şərəfləndir. Onda anbarların nemətlə dolar, şərab çənlərin təzə şərabla daşar. (Sül. 3:9-10)*

*Heç kim iki ağaya qulluq edə bilməz. Çünki ya birinə nifrət edib o birisini sevəcək ya da birinə bağlı qalıb o birisinə xor baxacaq. Siz həm Allaha, həm də sərvətə qulluq edə bilməzsiniz. (Mat. 6:24)*

*Beləliklə, "Nə yeyəcəyik?", "Nə içəcəyik?" və ya "Nə geyəcəyik?" deyə qayğı çəkməyin. Çünki bütpərəstlər bütün bu şeyləri axtarırlar. Doğrudan da, Səmavi Atanız bütün bunlara ehtiyacınız olduğunu bilir. Ona görə də siz əvvəlcə Allahın Padşahlığını və Onun salehliyini axtarın. Onda bunların hamısı sizə əlavə olaraq veriləcək. (Mat. 6:31-33)*

İndi isə yuxarıdakı ayələri yenə tək-tək oxuyun. Hər ayəni oxuyandan sonra deyin, bu ayələrə əsasən, niyə siz bir cütlük olaraq İsanı pulunuzun Sahibi kimi qəbul etməlisiniz.

**Pulla bağlı qərarlar**

Evli cütlüklərin mübahisələri çox vaxt pul üstündə olur. Ailədə pulun çoxluğu yaxud azlığından asılı olmayaraq pulundan necə istifadə olunacağı barədə hər kəs qərara gəlməlidir. Bəzən ər və arvad birgə qərar barədə razılığa gələ bilmirlər. Aşağıdakı sualları düşünmək önəmlidir:

- Hər ikiniz İsanı pulunuzun Sahibi kimi qəbul etməyə razısınızmı?
- Allahın ehtiyaclarınızı bildiyinə, qayğınıza qaldığına və ailənizi təmin edəcəyinə həqiqətən inanırsınızmı?
- Allahın sizə verdiyi hər şeydən necə istifadə etmək barədə birlikdə dua etməklə pul üstündəki mübahisələrdən necə qoruna bilərsiniz?

## QƏRARA GƏLMƏ

7. Aşağıdakı parçaları oxuyun.

*Bütün qəlbinlə Rəbbə güvən, öz idrakına etibar etmə. Bütün yollarında Onu tanı, O sənin yollarını düzəldər. (Süleymanın Məsəlləri 3:5-6)*

*Allahın zənginliyi nə böyük, hikməti və biliyi nə dərindir! Onun hökmləri necə də ağlasığmaz, yolları necə də anlaşılmazdır! «Rəbbin ağlını kim dərk etdi? Ona kim məsləhətçi oldu?» (Romalılara 11:33-34)*

Bu ayələrə əsasən, sizcə, niyə siz bir cütlük olaraq mühüm qərarlara gələrkən ilk öncə Allaha baxmalısınız?

Luka Müjdəsindən aşağıdakı ayələri oxuyun.

*O belə dedi: «Ey Ata, əgər Sənin iradənə məqbuldursa, bu kasanı Məndən uzaqlaşdır. Amma Mənim yox, Sənin iradən olsun». (İsa ələ verildiyi gecə, çarmıxa çəkilməzdən əvvəl Atasına dua edir; Luka 22:42)*

İsanın bu duası sizi nə bahasına olursa-olsun Allahın iradəsini seçməyə necə ilhamlandırır?

## KARYERA

8. Aşağıdakı ayələr sizi, özünüzü Allahın məqsədlərinə təslim edərək karyeraya dair qərarlarınızı Allahın əlinə verməyə necə ruhlandırır?

*İndi siz belə deyirsiniz: «Bu gün yaxud sabah biz filan şəhərə gedib orada bir il qalacağıq və ticarətlə məşğul olub pul qazanacağıq». Əslində isə sabah nə baş verəcəyini bilmirsiniz. Axı həyatınız nədir ki? Qısa bir müddətə görünüb sonra da yox olan buxardır. Bunun əvəzinə «əgər Rəbb istəyərsə, sağ qalarıq, bu və ya digər işi görərik» deməlisiniz. (Yaqub 4:13-15)*

*Beləliklə, ey qardaşlar, Allahın mərhəməti xatirinə sizə yalvarıram ki, bədənlərinizi diri, müqəddəs və Allahı razı salan bir qurban olaraq Ona təqdim edin; bu sizin ağılla etdiyiniz ibadətdir. Bu dövrə uyğunlaşmayın, əksinə, düşüncənizin təzələnməsi ilə dəyişin ki, Allahın yaxşı, razı salan və kamil iradəsini ayırd edəsiniz. (Romalılara 12:1-2)*

9. Yuxarıdakı ayələri müzakirə etdikdən sonra aşağıdakı ayələri oxuyun.

*Vaxtlı-vaxtında onlara yemək vermək üçün ağasının öz nökərləri üzərinə qoyduğu sadiq və ağıllı qul kimdir? Nə bəxtiyardır o qul ki, ağası evinə qayıdanda onu iş başında görür! (İsa dünyanın sonunda gəlişindən bəhs edir; Matta 24:45-46)*

Allah bir ailə olaraq sizə nə işlər tapşırıb? Yuxarıdakı ayələr sizi vaxtınızdan ağılla istifadə edərək Padşahlıq işləriylə məşğul olmağa necə ruhlandırır?

**Sadiq və ağıllı qul olmaq nə deməkdir?**

Biz, imanlılar hamımız daim Allahın xidmətində olmağa çağırılmışıq. Bu o deməkdir ki, biz evimizdə öz ailəmizə və başqalarına xidmət etməklə əslində Allaha xidmət edirik; iş yerimizdə də eynilə işimizi yerinə yetirməklə əslində Allaha xidmət edirik; həmçinin Allahın bizi apardığı yolda insanlara sözlə və əməllə Allahın kəlamını yayaraq Ona xidmət edirik. Özümüzü başqaları ilə müqayisə etməməliyik və Allahın onları çağırdığı işi eynilə təkrar etməyə çalışmamalıyıq. Hər cütlük Allahın onları nəyə çağırdığını müəyyən etməli və bu çağırışa itaət etməlidir.

*Dediyiniz və etdiyiniz hər şeyi Rəbb İsanın adı ilə edin, Onun vasitəsilə Ata Allaha şükür edin. (Kolosselilərə 3:17)*

10. Əvvəlcə Allahın Padşahlığını və Onun salehliyini axtarmaq üçün nə edəcəyinizi bir cütlük olaraq birlikdə müzakirə edin.

Bəhs etdiyimiz məqamlardan hansılarında Allaha güvənmək və onu bu sahənin Rəbbi olaraq qəbul etmək sizə çətin olur?

**Dua**: Siz bir cütlük kimi Allahın iradəsini, nə olursa-olsun, yerinə yetirmək üçün özünüzü Allaha diri qurban olaraq təqdim etmisinizmi? Romalılara 12:1-2-ni təkrar oxuyun. Paul bu ayələrdə deyir ki, biz özümüzü Allaha təqdim etdikdə həqiqətən Ona ibadət edirik. İndi buna görə dua etməyə vaxt ayırın.

## Növbəti dərsdən əvvəl…

... təzəcə öyrəndiyiniz ayələri təklikdə təkrar oxuyub düşünün. Şəxsən siz Ona güvənməkdə böyümək üçün Allahın necə köməyinə ehtiyac duyursunuz?

- Fikirlərinizi və təkmilləşmə arzularınızı dəftərinizdə yazın.

Bu gün bəhs etdiyimiz məqamlarda Allaha birinci yer vermək üçün bir evli cütlük olaraq birlikdə necə çalışacağınızdan danışın. Pula dair yuxarıdakı hissədə verilən sualların müzakirəsi də unutmayın.

- Bu məqamların hər birində İsanın Rəbb olması üçün konkret olaraq nə edəcəyinizi dəftərinizdə yazın.

Birlikdə dua etməyə vaxt ayırın və duada Allahdan istəyin ki, bir ailə olaraq Ona xidmət etməyinizin konkret yollarını sizə göstərsin.

- Birgə dua zamanlarınızda Allahın sizə göstərdiyi hər şeyi dəftərinizə yazın.

**(Növbəti dərsə gələndə dəftərinizi və Müqəddəs Kitabınızı gətirməyi unutmayın.)**

# 4. NIKAHDA INTIM ƏLAQƏ: ALLAHIN GÖZƏL PLANI

(**Qeyd:** Bu dərsdə kişilərlə qadınların ayrı olması çoxları üçün rahatdır. Ailə qurmağa hazırlaşan oğlan müdrik və təcrübəli bir ər olan kişi ilə, ailə qurmağa hazırlaşan qız da müdrik və təcrübəli bir arvad olan qadınla birlikdə, yaxud kişi/qadın qrupları halında bu dərsi keçə bilərlər.)

**Bu dərsə başlamazdan əvvəl:**

Keçən həftə 3-cü Dərsdə İsanı ailənizin Rəbbi olaraq qəbul etmək barədə öyrəndiyiniz və dəftərinizə yazdığınız şeyləri bir neçə dəqiqə müzakirə edin.

**Müzakirə üçün suallar:**

Bir oğlanla bir qızın birbirinə aşiq olub evlənməsi və ömrünün axırına qədər xoşbəxt yaşaması haqqında hekayələr hamının xoşuna gəlir. Təəssüflər olsun ki, bir çox evli cütlüyün hekayəsi belə deyildir. Ola bilsin, çoxları birlikdə qalırlar, ancaq sevinc və yaxınlıq (intimlik) hissi yox olub gedir. Sizcə, ər ilə arvad ömrünün axırına qədər bir-birinə aşiq qalmaq üçün nə edə bilərlər?

İndi Müqəddəs Kitabın nikahda intim əlaqə haqqında nə dediyinə nəzər salaq.

**Yaradılış 1:27-28-i oxuyun.**

1. 27-ci ayədə Allahın insanı yaratması haqqında deyilən iki həqiqət nədir?

   Allhın insanı nə üçün kişi və qadın olaraq yaratdığını heç düşünmüsünüz? Niyə O bizi amyöb (təkhüceyrəli heyvan) kimi cinssiz yaratmayıb, amma törəyib-artmaq üçün bizi ikiyə bölüb? Fikirlərinizi müzakirə edin.

2. İnsanlara verilən ilk əmr nə idi? (28-ci ayə)

**Yaradılış 2:24-25-i oxuyun.**

3. 24-cü ayədə nikahın mahiyyəti təsvir olunur. Ona hansı 3 şey daxildir?

   Bu ayənin üçüncü hissəsində, "onlar bir bədən olacaq" deyilir. Bu sözlərlə ər-arvadın nikah daxili cinsi əlaqələri təsvir olunur. Bu təsviri düşünün. "Bir bədən" ifadəsini düşünəndə nə anlayırsınız, Allah ər ilə arvad arasında necə bir yaxınlığın, intimliyin qurulmasını istəyir?

4. 25-ci ayəni təkrar oxuyun. O vaxt birinci kişi və qadın hələ günah etməmiş, hələ xəcalət hissi duymamışdılar. Sizcə, bir kişi ilə bir

qadın evləndiyi vaxt bu ayədə Adəm və Həvva olduğu kimi, bir-birinin qarşısında utanmamaq ənamını yenidən qəbul edirlərmi? Cavabınızı izah edin.

**Yaradılış 1:31-i oxuyun.**

5. İndiyə kimi oxuduğumuz ayələrdən açıq-aşkar görürük ki, cinsi yaxınlıq Allahın fikri idi: O insanı kişi və qadın olaraq yaratdı; onların ikisi bir bədən olacaq; bu yolla uşaqları doğulacaq.

   31-ci ayədə Allahın yaratdığı *hər şey* barəsində nə hiss etdiyini oxuyuruq? Sizcə, Allah cinsi əlaqə barədə nə hiss edir?

   Bəziləri düşünürlər ki, cinsi əlaqə büsbütün kirli və ya natəmiz bir şeydir. Əgər cinsi əlaqə Allahın evli cütlüklərə bəxş etdiyi bir ənamdırsa, sizcə, insanların da belə düşünməsi Ona xoşdurmu?

**Yaradılış 4:1-i oxuyun.**

6. Həvvanın bu ayədəki sözü, insanların doğub-törəməkdə Allahla əməkdaşlıq etdikləri barədə anlayışını necə ifadə edir?

**İndi isə Əhdi-Cədidə keçək, Həvari Paulun Korinf əhlinə nikah daxili cinsi əlaqələr haqqında nə dediyini oxuyaq.**

**1 Korinflilərə 7:1-5-i oxuyun.**

7. 1-cı ayəni təkrar oxuyun. Görəcəksiniz ki, bu ayənin bir hissəsində Paul korinflilərin ona yazdıqları məktubdan sitat gətirir. Görünür ki, əxlaqsızlıq çox yayıldığına görə, onlar elə düşünürdülər ki, guya cinsi əlaqədən tamamən imtina edən insanlar başqalarından daha müqəddəsdirlər. Buna görə onlar elə bilirdilər ki, nikah daxilində belə, cinsi əlaqədən imtina etmək lazımdır. 2-4-cü ayələrdə Paul buna necə cavab verdi?

8. 3-4-cü ayələri təkrar oxuyun. Paul 3-cü ayədə ərin və arvadın bir-birinə qarşı məsuliyyətini təsvir etmək üçün hansı sözləri işlədir?

   Öz bədənləri üzərindəki səlahiyyətləri barədə nə deyir? (4-cü ayə)

9. 4-cü ayəni təkrar oxuyun. Paul deyir ki, ər və arvad cinsi cəhətdən bir-birinə xidmət etməyə borcludurlar. Bu halda cinsi əlaqədən imtina etməsi ilə həyat yoldaşını incitməsi doğru bir hərəkətdirmi? Yaxud cinsi əlaqədən istifadə edərək öz həyat yoldaşını idarə etmək, istədiyini ondan almaq doğru bir hərəkətdirmi? Cavabınızı izah edin.

10. 2-ci dərsdə Paulun başqa bir məktubundan arvadın ərə və ərin arvada qarşı necə münasibət göstərməli olduğu haqqında oxumuşduq. Aşağıdakı ayələri oxuyun.

*Ey qadınlar, Rəbbə tabe olduğunuz kimi ərlərinizə tabe olun. (Efeslilərə 5:22)*

*Ey ərlər, Məsih imanlılar cəmiyyətini sevib onun uğrunda Özünü fəda etdiyi kimi siz də arvadlarınızı sevin. (Efeslilərə 5:25)*

İndi 1 Korinflilərə 7:2-4-ü təkrar oxuyun və Efeslilərə Məktubdan olan ayələrlə birlikdə bu ayələri də düşünün. Aşağıdakıları müzakirə edin.

**Qadınlara məxsus qeyd:** Ərinə hörmət edən, bütün ürəyi ilə tabe olan bir qadın onunla cinsi əlaqədən imtina edərmi?

Həqiqət budur ki, kişilərin, ələlxüsus yaşları artdıqca, cinsi əlaqəyə qadınlara nisbətən daha çox istəyi və tələbatı olur. Sevən arvad, özünün belə istəyi olmasa belə, ərini razı salmağa çalışacaq. Qadınlara bunu yadda saxlamaq önəmlidir: Ərinizin cinsi tələbatı öz evində qarşılansa, bunu başqa yerlərdə axtaracağına daha az ehtimal olar..

**Kişilərə məxsus qeyd:**Məsih imanlılar cəmiyyətini sevdiyi kimi arvadını sevən bir kişi onu məcbur edərmi? Cinsi əlaqə cəhətdən arvadi ilə, ələlxüsus arvadı hamilə olduğu və ya özünü pis hiss etdiyi zamanlarda, necə rəftar edər?

1 Peter 3:7-də yazılıb: "Ey ərlər, siz də bunun kimi arvadlarınızla ədəblə, onların daha zərif varlıqlar olduğuna uyğun davranın..." Nəzakət və anlayış, arvadınızın dərindən sevildiyini hiss etməsi üçün son dərəcə mühümdür. Peterin dediyi kimi, qadın "daha zərif varlıq"dır, buna görə də qadınla nəzakətlə rəftar etmək lazımdır. Cinsi əlaqə xüsusilə ilk zamanlarda onu ağrıda bilər. Onu dinləyin, hisslərinə diqqət verin. Arvadınız üçün cinsi əlaqə ləzzətli olsa, o daha çox həvəslə özünü sizə verəcək.

Bir-birini razı salmağa çalışan ər ilə arvadın, xudbinlikdən uzaq, həqiqi məhəbbəti bir-birinə göstərmək üçün əla imkanları olacaq. Bu növ qarşılıqlı qayğı nikahda məhəbbətin canlı qalmasına necə davam edir?

11. 1-ci Korinflilərə 7:5-i təkrar oxuyun. Paul onlara bu ayədə nə məsləhət görür?

O niyə deyir ki, onlar yalnız qısa müddətə cinsi yaxınlıqdan imtina etmək barədə razılığa gəlməlidirlər?

Bəzən ər-arvad hamiləliyin qarşısını almaq üçün cinsi əlaqədən tamamilə imtina etməyi qərara alırlar. Bu ayəyə əsasən, sizcə, bu, yaxşı ideyadır? Fikrinizi izah edin.

**Nikahda intim əlaqə üçün Allahın gözəl məqsədi**

Cinsi birləşmə insanlara bir ənam olaraq verilib, belə ki, nikah bağı ilə ömürlük sədaqətin təhlükəsizliyində ər və arvad bu dünyada ən dərin səviyyədə intimliyi yaşaya bilirlər. Bu, məhdud da olsa, Ata, Oğul və Müqəddəs Ruh arasındakı intimliyin və eləcə də Məsih ilə Gəlini olan İmanlılar Cəmiyyəti arasındakı intimliyin bir obrazıdır. Əlbəttə, bunlar cismani deyil, ruhani əlaqələrdir, lakin yenə də son dərəcə realdır və məhz bu dərin intimlikdən yeni həyat doğulur. Allah bizə dünyada ən qiymətli varlıq olan yeni bir insanın yaranmasında iştirak etmək inanılmaz şərəfini verir. Bunu düşünün: atanın sperması ananın yumurta hüceyresiylə qarışanda atanın DNT-sindəki bütün imkanlar ananın DNT-sinin bütün imkanları ilə birləşir. Beləcə doğulan hər körpə, dünyada yaşayan başqa heç bir şəxslə eyni olmayan unikal bir fərd olur. Allahımız bizi nə qədər böyük hikmətlə planlaşdırıb!

Şeytan cinsi əlaqənin həm intimlik, həm də törəyib-artma potensialını dərk etdiyinə görə cinsi əlaqəni təhrif və məhv etmək üçün var qüvvəsi ilə çalışır. Bu əlaqənin həyat və yaradıcılıq üçün böyük qüdrəti ilə yanaşı bizi məhv etməsi cəhətdən də çox böyük potensialı vardır. Buna görə Süleymanın Məsəlləri 4:23-də belə yazılıb: "Hər şeydən əvvəl öz ürəyini qoru, çünki həyat çeşməsi odur." Tez-tez dua edib Allahdan diləyin ki, şeytanın hiylələrindən qorunmaq üçün ayıq olasınız və bunlara qarşı dura bilmək üçün Allahın qüvvəsiylə güclənəsiniz. Cinsi cəhətdən sınağa düşəndə heç tərəddüd etmədən ruhən yetkin olan bir qardaş və ya bacıya müraciət edin ki, bu mübarizədə sizə kömək etsin.

**Dua:** İndi bir neçə dəqiqə dua edin və nikahda cinsi əlaqə ənamı üçün Allaha şükür edin. Ondan diləyin ki, cinsi əlaqənin həqiqi mənasını anlamağınıza və ondan tam həzz almağınıza kömək etsin.

## Növbəti dərsdən əvvəl...

...Nəğmələr Nəğməsini başdan-başa oxumağa vaxt ayırın. (Hələ evli deyilsinizsə, bu kitabı birlikdə oxumayın, ayrı-ayrılıqda oxuyun.) Bu kitabda cinsi əlaqənin başqa bir məqsədini - ondan həzz almağımızı görürük! Bəy ilə gəlinin cismani məhəbbətdən necə zövq aldıqlarına və bunu necə sərbəst sözlərlə ifadə etdiklərinə diqqət yetirin. Sizcə, evli cütlüklərin onlara Allahdan bəxş edilən cinsi birləşmədən tam dolğun həzz almaları Allaha zövq verməzmi?

- Nəğmələr Nəğməsindən sizə ən çox təsir edən sözləri dəftərinizə yazın.
- Allahın bizə bu ənamı nə məqsədlə bəxş etdiyi barədəki fikirlərinizi dəftərinizdə yazın.
- Həmçinin bu dərsdə öyrəndiyiniz başqa şeyləri yazın.

Əgər keçmişdə cinsi əlaqəyə natəmiz bir şey kimi baxmısınızsa, yaxud ondan qorxmusunuzsa, davamlı dua edin, Allahdan fikirlərinizi dəyişdirməsini diləyin, belə ki, O bu əlaqəyə intimliyin ən dərin səviyyəsinin gözəl ifadəsi olaraq baxdığı kimi, siz də buna belə baxasınız!

**(Növbəti dərsə gələndə dəftərinizi və Müqəddəs Kitabınızı gətirməyi unutmayın.)**

## 5. Nikahınızı qiymətləndirin və qoruyun

***"...qoy Allahın birləşdirdiyini insan ayırmasın." Matt. 19:6***

**Bu dərsə başlamazdan əvvəl:**

Keçən həftə 4-cü Dərsdə öyrəndiyiniz və dəftərinizdə yazdığınız şeyləri bir neçə dəqiqə müzakirə edin. Həmçinin Süleymanın Nəğməsi barədə yazdıqlarınızdan rahat bölüşə biləcəyiniz hissələri bölüşün.

**Müzakirə üçün suallar:**

Allahın Musaya verdiyi əmrlərdən biri budur: "Zina etmə." Zina ailələrə, uşaqlara və ümumiyyətlə cəmiyyətə necə zərər verir?

**Matta 19:1-12-ni oxuyun.**

1. Fariseylər, Musanın yəhudi xalqına verdiyi qanunu mükəmməl bilən insanlar idi, lakin İsa onları ikiüzlülükdə ittiham etmişdir. Burada yazılıb ki, onlar İsanı sınamaq istədilər. Yəni, Onu səhv cavab verməyə məcbur edib tələyə salmaq istədilər. Ondan nə soruşdular? (3-cü ayə)

2. Yadınızdadırsa, 1-ci Dərsdə nikahın haradan başladığından bəhs etmişdik. 4-cü dərsdə isə nikahın mahiyyətindən danışmışdıq. İki cinsin olması başlanğıcdan kimin fikri idi? (Yaradılış 1:27) Nikah ideyası haradan meydana gəlib? (Yaradılış 2:24)

3. Matta 19:4-6-nı təkrar oxuyun. Bu ayələrdə İsa, Yaradılış Kitabından yuxarıdakı ayələri sitat gətirir. Burada O, nikahın müqəddəs, qiymətli və qorunmağa layiq olduğunu daha açıq şəkildə göstərir.

   İsanın dediyinə görə, ailə quran bir kişi ilə qadını kim birləşdirir? (6-cı ayə)

4. Sizcə, niyə nikahdan çox vaxt bir əhd kimi bəhs olunur? Sizcə, əhd bağlamaq nə deməkdir?

5. Efeslilərə 5:31-32-yə baxın. 2-ci Dərsdə Paulun bəhs etdiyi böyük sirr barədə nə söyləmişdik, yadınızdadırmı?

6. Matta 19:6-da İsa "insan ayırmasın" dedikdə nə nəzərdə tutur? Burada boşanma haqqında nə deyilir?

   İsanın bu ayələrdə söylədiyinə əsasən, boşanmanın niyə bu qədər ciddi olduğunu bir neçə dəqiqə müzakirə edin.

   Niyə ər-arvadın boşanması həm özlərinə, həm də uşaqlarına o qədər iztirab verir? (Bu sualı müzakirə edin, sonra da aşağıdakıları oxuyun.)

**Boşanmanın verdiyi iztirab**

Bu gün həyat yoldaşı ilə yaşamaqdan xoşbəxt olmayan çox insan, problemlərinin ən asan həll yolunu boşanmaqda görür. Bəs Allah nə deyir? Nikah bağlayan iki şəxs Allahın Kəlamına görə "bir bədən"dir. Allah onları əsrarəngiz, mənəvi bir yolla birləşdirir. Onlar hələ iki ayrı şəxsiyyət olsalar da, çox real bir mənada bir vəhdət təşkil edirlər. Bədənin bir hissəsini bədənə ağrı vermədən və xəsarət yetirmədən ayırmaq mümkün olmadığı kimi, bir bədən olmuş evli cütlüyü çox böyük ağrısız və xəsarətsiz ayırmaq da mümkün deyildir. Ciddi nəticələrə məruz qalmadan Allahın etdiyi işi pozmaq da qeyri-mümkündür.

7. Fariseylər bilirdilər ki, İsa boşanmanın yanlış olduğunu deyir. Buna görə Ona başqa bir sual verdilər. 7-ci ayəni təkrar oxuyun. Onlar İsaya nə sual verdilər?

8. İsaya görə, niyə Musa boşanmaya icazə vermişdi? (8-ci ayə) İnadkar ürəklər Allaha xoşdurmu? 4-6-cı ayələrə və 8-ci ayəyə əsasən, evli olanlar üçün Allahın arzusu nədir?

9. 9-cu ayəni təkrar oxuyun. İsanın dediyinə görə, kişinin arvadını boşaması üçün yeganə haqlı səbəb nə ola bilər? Hər hansı başqa bir səbəbə görə arvadını boşayan və sonra başqa bir qadınla evlənən kişi hansı günahı işlədir?

   İsa burada konkret olaraq kişilərə danışır, amma siz nə düşünürsünüz, bu prinsip qadınlara da aid ola bilərmi?

   Sizcə, niyə cinsi əxlaqsızlıq boşanmaya səbəb ola bilər? Bir dəqiqə düşünün. Zina ər-arvad arasında bağlanan əhdi necə pozar?

   Bu sizə nikahda sədaqətin əhəmiyyəti barədə nə deyir?

**Nikahlar sağaldıla bilər.**

İsa ərin yaxud arvadın zina etdiyi təqdirdə boşanmaya icazə verildiyini söyləyibsə də, bu demək deyil ki, belə halda mütləq boşanmaq lazımdır. İsanın çarmıxda ölümü sayəsində Allah sidq ürəkdən tövbə edib Ona tərəf dönən hər kəsi tamamilə bağışlayır. 1 Yəhya 1:9-da yazılmışdır ki, əgər biz "günahlarımızı etiraf ediriksə, Allah sadiq və ədalətli olduğu üçün günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcək". Günahlarına

görə tövbə etmiş və həyat yoldaşı tərəfindən bağışlanmış çox ər və arvad vardır. Onların bərpa olunması uzun və əziyyətli proses olsa da, nəticədə Allah nikahlarına şəfa vermişdir. Bu çətinlikləri sayəsində Allahla münasibətlərində böyüdülər baxmayaraq ki, günaha düşmüşdülər. (6-cı Dərsdə bağışlamaqdan daha çox bəhs ediləcək.)

## NİKAHDA SƏDAQƏT

10. Aşağıdakı ayələrin hər birini oxuyun və bunların nikahda sədaqət barəsində nə öyrətdiyini müzakirə edin.

(**Qeyd**: Cinsi əxlaqsızlıq dedikdə nikahdan kənar hər hansı cinsi fəaliyyət nəzərdə tutulur; zina da buna daxildir.)

*Zina etmə. (Bu, Allahın Musaya verdiyi On Əmrdən biridir. Çıxış 20:14)*

*Cinsi əxlaqsızlıqdan uzaqlaşın. İnsanın etdiyi bütün digər günahlar bədəndən kənardadır, amma əxlaqsızlıq edən öz bədəninə qarşı günah edir. Məgər bilmirsiniz ki, bədəniniz Allahdan aldığınız, sizdə yaşayan Müqəddəs Ruhun məbədidir? Siz özünüzə məxsus deyilsiniz, çox baha qiymətə satın alınmısınız. Beləliklə, bədəninizlə Allaha izzət gətirin. (1 Korinflilərə 6:18-20)*

*"Çünki Allahın iradəsinə görə müqəddəslik yolunuz belədir: cinsi əxlaqsızlıqdan qaçın, hər biriniz Allahı tanımayan bütpərəstlər kimi şəhvət və ehtirasla deyil, müqəddəslik və hörmətlə arvad almağı öyrənin, heç kim haqsızlıq edib bacı-qardaşını istismar etməsin. Çünki əvvəlcə sizə dediyimiz və xəbərdarlıq etdiyimiz kimi, Rəbb bütün bunlara görə qisas alacaq. Çünki Allah bizi murdarlığa deyil, müqəddəsliyə çağırmışdır. Ona görə bu təlimatı rədd edən kəs insanı deyil, sizə Öz Müqəddəs Ruhunu bəxş edən Allahı rədd edir". (1 Saloniklilərə 4:3-8)*

Yuxarıdakı ayələrə əsasən, niyə ər ilə arvadın ömrünün axırına qədər yalnız bir-birinə sadiq qalması bu qədər çox mühümdür?

## ZEHİNDƏ SƏDAQƏT

11. İsa ardıcıllarına öyrədib ki, öz həyat yoldaşına cinsi cəhətdən sadiq qalmaq təkcə cinsi aktın özü ilə məhdud deyildir. Sədaqətsizlik insanın zehnindən, ürəyindən başlayır. Aşağıdakı ayələri oxuyun.

*Əxlaqsızlığın, hər cür murdarlığın və yaxud tamahkarlığın adı belə, aranızda çəkilməsin, çünki bunlar müqəddəslərə yaraşmaz. (Efeslilərə 5:3)*

*"Zina etmə" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki, qadına şəhvətlə baxan hər adam artıq ürəyində onunla zina etmiş olur. (Matta 5:27-28)*

*Nəhayət, qardaşlar, doğru, ləyaqətli, saleh, pak, cazibəli, etibarlı nə varsa, əgər əla və tərifə layiq nə varsa, bunları düşünün. (Filipililərə 4:8)*

Yuxarıdakı ayələrdən hər birinin ürəyinizi və zehninizi təmiz saxlamaq barədə nə öyrətdiyini deyin.

12. Sizcə, bu ayələr filmlərdə, televiziyada pornoqrafiya yaxud erotikaya baxmaq haqqında nə öyrədir?

13. Şeytan həmişə nikahları məhv etməyə çalışır. Evli yaxud hələ evlənməmiş olmağınızdan asılı olmayaraq, nikahınızın qüvvətli olması, şeytanın hiylələrindən qorunması üçün həm birlikdə, həm də ayrı-ayrılıqda dua edirsinizmi?

1 Peter 5:8-9-da Həvari Peter bu sözləri yazmışdır:

*Ayıq durun, oyaq olun. Çünki düşməniniz olan iblis nərildəyən və kimisə aşırmaq istəyən aslan kimi dolaşır. Möhkəm imanla ona qarşı durun. Bilin ki, bütün dünyada bacı-qardaşlarınız da eyni cür əzab çəkirlər.*

Bu ayələr nikahınızın qüvvətli olmasına necə kömək edə bilər?

**Dua:** İndi nikahınıza görə birlikdə dua edin. Aranızda mübahisələr baş verdikdə boşanmaq fikrinə qarşı durmaq üçün Allahdan lütf diləyin.

## Növbəti dərsdən əvvəl...

**...** Süleymanın Məsəlləri 5-ci fəsli oxuyun. Bu fəsil xüsusilə kişilər üçün nəzərdə tutulub, ancaq nikahda sədaqət prinsipi, sözsüz, qadınlara da aiddir.

- Həyat yoldaşınıza sadiq qalmağınızın vacibliyinin bu fəsildə verilən bir neçə səbəbini dəftərinizdə yazın.

Son 4 dərsi təkrar nəzərdən keçirməyə vaxt ayırın. Nikahınızı boşanmaya qarşı möhkəmlədə biləcək şeyləri öyrənmisinizmi?

- Bunları dəftərinizdə yazın.

Həmçinin Matta 19-dan sitat gətirilən ayələri təkrar oxuyun. Evləndiyiniz zaman üzərinizə götürdüyünüz öhdəliyin ciddiliyini düşünün. Evli cütlüyün boşanması həm ərə, həm arvada, həm də uşaqlarına böyük əzab verir. Nə çətinlikləriniz olursa-olsun, onlarla ikiniz birlikdə üzləşəcəyinizi qəti qərara alın.

Ürəyinizdə öz-özünüzə və eləcə də nişanlınıza və ya həyat yoldaşınıza söz verin ki, Allahın köməyi ilə aranızdakı mübahisənin həlli kimi "boşanmaq" sözünü əsla dilinizə gətirməyəcəksiniz.

- Vədinizi dəftərinizdə yazın.

Nikahınız üçün birlikdə dua edin.

**(Növbəti dərsə gələndə dəftərinizi və Müqəddəs Kitabınızı gətirməyi unutmayın.)**

# 6. Bağışlama: Uzun və xoşbəxt nikahın açarı

**Bu dərsə başlamazdan əvvəl:**

Keçən həftə nikahınızı necə möhkəmlədə biləcəyiniz barədə Süleymanın Məsəlləri 5-ci fəsil haqqında dəftərinizə yazdığınız şeyləri bir neçə dəqiqə müzakirə edin. (5 dəqiqə)

**Müzakirə üçün suallar:**

İnsanların əksəriyyəti, onları incidən və ya onlarla haqsız davrananlara necə reaksiya verirlər? Bəs siz bu haqda nə düşünürsünüz?

Ər-arvad münasibətlərimizdə hamımızın həyat yoldaşımız ilə haqsız davrandığımız zamanlar olur. Həyat yoldaşımızın da bizimlə haqsız davrandığı zamanlar olur. Bir-birimizə qarşı məhəbbətimizin artması üçün üzr istəməyi və bağışlamağı öyrənməliyik. İlk əvvəl İsanın bağışlamanın əhəmiyyəti haqqında nə öyrətdiyinə nəzər salaq.

**Matta 18:21-35-i oxuyun.**

1. 21-22-ci ayələri təkrar oxuyun. Sizcə, İsa bunu dedikdə, adamı neçə dəfə bağışlamanın hesabını tutmağı nəzərdə tutur? İsa nə nəzərdə tutur?
2. Əgər biz bir adamı neçə dəfə bağışladığımızın hesabını tuturuqsa, bu hərəkətimiz, o adama bəslədiyimiz münasibət haqqında nə göstərir? Sizcə, onu ürəkdən bağışladığımızı göstərirmi?
3. 24-ci ayəni təkrar oxuyun. Qulun padşaha nə qədər borcu var idi?
4. Padşah o adamın borcunun ödənilməsi üçün özünü və ailəsini satmaq istədi. Bəs qul nə etdi? (26-ci ayəyə baxın.)

   Sizcə, o adam nə vaxtsa borcunun hamısını ödəyə bilərdimi?

   Padşah onun yalvarışına necə cavab verdi? (27-ci ayə)
5. 28-30-cu ayələri təkrar oxuyun. Qul bağışlanıb buraxılandan sonra nə etdi? (28-ci ayə)

   Qulun yoldaşının ona nə qədər borcu var idi?
6. 32-34-cü ayələri təkrar oxuyun. Padşah bu hadisəni öyrənəndə nə etdi? Sizcə, padşahın hərəkəti düz idi? Cavabınızı izah edin.
7. 35-ci ayəni oxuyun. Bu məsəlin sonunda İsa nə dedi? İsa burada çox ciddi bir söz deyir. İsa, Əhdi-Cədidin başqa yerlərində də eyni prinsipi öyrədir. **Matta 6:14-15-i oxuyun.** Bu ayələr bizə nə öyrədir?
8. Bu məsəlin məğzi Matta 18:33-dədir. Bu ayəni təkrar oxuyun. Allahın bizim günahlarımızı bağışladığına həqiqətən inanmasaq, başqalarını ürəkdən bağışlamağa çətin olar. Allahın sizi sevdiyinə

və İsanın çarmıxda ölümü xatirinə sizi bağışladığına inanırsınızmı?

9. Bu məsələ təkrar baxın. Allahın nəzərində günah borcumuz qulun padşaha olan borcuna necə bənzəyir?

   Padşahın qulunun borcunu bağışlaması Allahın bizi bağışlamasına necə bənzəyir?

   Biz bağışlandıqdan sonra Allah bizdən nə gözləyir?

**Bağışlamaya dair bu təlimi nikahımıza necə tətbiq edə biləcəyimizi düşünək.**

**Hamımız bağışlamağı öyrənməliyik, ancaq çox vaxt bağışlamağın mənasını dərk etmədiyimizə görə həyat yoldaşımızı bağışlamaq bizə çətin gəlir.**

## Bağışlamağın mənası nədir?

**A. <u>Bağışlamağın mənası odur ki, mən haqsızlığı və incikliyi Allahın əllərinə buraxıram.</u>** Həyat yoldaşımı bağışlamağı qərara alıramsa, bu demək deyil ki, mənə haqsızlıq etdiyini yaxud məni incitdiyini inkar etməliyəm. Haqsızlıq və ya inciklik yoxdursa, bağışlamağa ehtiyac da yoxdur. O məni incitdiyi halda mən incitməyinin əvəzini çıxmayacağam. Allahın həyat yoldaşımın ürəyində işləməyinə ümid bağlayacağam.

**Romalılara 12:19-21-ni oxuyun.**

*[19]Ey sevimlilər, heç kəsdən qisas almayın, Allahın qəzəbinə yer verin. Çünki yazılıb ki, Rəbb belə deyir: «Qisas Mənimdir, əvəzini Mən verəcəyəm». [20]Əksinə, «düşmənin acdırsa, onu yedizdir, susuzdursa, ona su ver. Belə etməklə sanki onun başına köz tökərsən». [21]Pislik sənə üstün gəlməsin, pisliyə yaxşılıqla qalib gəl.*

1) 20-ci ayəyə təkrar baxın. "Düşmən"inizi yedizdirmək, ona su vermək həqiqi bağışlamanın səmərəsini necə göstərir? (Həyat yoldaşınız, əlbəttə, "düşmən"iniz deyildir, lakin bəzən o sizi incidəndə ürəyinizdə belə bir hiss yarana bilər!)

2) Əvəzini çıxmaq yaxud incimək əvəzinə bağışlamağı qərara aldığınız zaman çarmıxda "Ata! Onları bağışla, çünki nə etdiklərini bilmirlər" Deyənə necə bənzəyirsiniz?

3) Bunu düşünün: Siz həqiqətən inanırsınızmı ki, Allah böyükdür və həyat yoldaşınızın ürəyini dəyişdirməyə, söylədiyi və ya etdiyi şeyin yanlış olduğunu ona göstərməyə qadirdir? Əgər həyat yoldaşınızın yanlış fikrini və ya hərəkətini dəyişdirəcəyinizi düşünürsünüzsə, çox güman ki, yanılırsınız.

**B. <u>Bağışlamağın mənası odur ki, mən Allahın mənə hədsiz mərhəmət göstərdiyini dərk edirəm və buna görə özüm də mərhəmətli oluram.</u>** Bir az bundan əvvəl Matta 18-dən nə öyrəndiyimizi düşünək. Çox ciddi bir həqiqəti görürük. Allaha qarşı etdiyimiz günah böyükdür və əgər biz Allahın bu borcumuzu bağışlamasını istəyiriksə, bizə qarşı günah edən başqa insanlarla necə rəftar etməliyik?

*"Nə bəxtiyardır mərhəmətli olanlar! Çünki onlara mərhəmət ediləcək". (Matta 5:7)*

**C. <u>Bağışlamağın mənası odur ki, mən ürəyimdə o adama qarşı soyuqluğa və acı hisslərə yol vermirəm</u>.** Bağışlamağımla təkcə həyat yoldaşıma deyil, özümə yaxşılıq edirəm. Acılıq hissini və qəzəbi saxlayıramsa, bunlar *məni* məhvə aparır. Bəlkə də o heç məndən üzr istəmir. Belə halda bağışlamam yalnız Allahla mənim aramda olur. Duada Allaha deyirəm ki, həyat yoldaşımı bağışlamağı qərara alıram və həqiqətən ürəkdən bağışlamağıma kömək etməsi üçün Ondan lütf diləyirəm.

*[8]Nəhayət, hamınız həmfikir olun. Başqalarının hər bir hissinə şərik olun, bir-birinizi qardaşlıq məhəbbəti ilə sevin, rəhmli və itaətkar olun. [9]Pisliyə pisliklə, söyüşə də söyüşlə cavab verməyin, əksinə xeyir-dua edin. Çünki bunun üçün çağırılmısınız ki, xeyir-duaları irs olaraq alasınız. (1 Peter 3:8-9)*

1) Sizcə, bu ayələrin öyrətdiklərinə əməl etmək, həyat yoldaşınız sizə qarşı haqsızlıq etdiyi halda belə, ürəyinizdə ona qarşı məhəbbət bəsləməyinizə necə imkan verəcək? Ona xeyir-dua vermək və eyni zamanda ürəyinizdə ona qarşı kin və ya qəzəb saxlamaq mümkündürmü? Cavabınızı izah edin.

2) 9-cu ayəyə görə, pisliyə pisliklə cavab vermək əvəzinə xeyir-dua versəniz nə alacaqsınız?

**Dua:** İndi birlikdə dua edin və bütün günahlarınızın tamamilə bağışlanması üçün Allaha şükür edin. Ondan diləyin, sizə yumşaq və həlim ürək versin. Haqsızlıq edildikdə belə, bir-birinizə xeyir-dua verməyi və bir-birinizi bağışlamağı sizə öyrətsin.

**Bağışlamanın əməli tətbiqi**

İndi imkanınız varsa, bu dərsin **Üzr istəmə və bağışlama** adındakı növbəti hissəsini oxuyun. Yaxud, əgər istəyirsinizsə, bu hissəni qrupda ayrı bir dərs kimi keçə bilərsiniz. Bu hissəni qrupda birgə müzakirə etməsəniz, ər-arvadlar və ya nişanlı cütlüklər növbəti dərsdən əvvəl bunu birlikdə keçməlidirlər. **Bu hissəni buraxmayın!** Burada çox önəmli məlumatlar veriləcək.

Bu əməli hissəni elə bir yerdə saxlamalısınız ki, gələcəkdə üzr istəmək və ya bağışlamaq lazım gəldikdə hər vaxt onu asanlıqla tapa biləsiniz.

## Növbəti dərsdən əvvəl...

**...** Matta 18:21-35-dəki məsəli təkrar oxuyun. Sonra bu dərsin qalan hissəsini oxuyun.

- Həyat yoldaşınızı bağışlamanın vacibliyinin bir neçə səbəbini dəftərinizdə yazın.

**Üzr istəmə və bağışlama** barədəki bu hissəni qrupda oxusanız da, oxumasanız da, onu ikilikdə və ya təklikdə təkrar oxumağa vaxt ayırın.

- Bu addımlardan öyrəndiyiniz ən mühüm şeylərin bir neçəsini dəftərinizdə yazın.
- Həmçinin sizə ən çətin gələn şeyi yazın və buna görə bir az dua edin.

Evli yaxud nişanlı olmağınızdan asılı olmayaraq, nişanlınızdan və ya həyat yoldaşınızdan üzr istəyəcəyiniz şeylər varmı? Bunu bu həftə ərzində edəcəksinizmi?

Onu bağışlamalı olduğunuz, ürəyinizdə qalan şeylər varmı? O sizdən üzr istəməsə belə, bağışlayacaqsınızmı? Bu iki addım, nikahınızın düşmənin hücumlarına qarşı möhkəmlədilməsi baxımından son dərəcə mühüm olacaq.

**(Növbəti dərsə gələndə dəftərinizi və Müqəddəs Kitabınızı gətirməyi unutmayın.)**

# ÜZR ISTƏMƏ VƏ BAĞIŞLAMA

## 1. <u>ÜZR İSTƏMƏ</u>

Ən çətin deyilən söz, "Bağışla, səhv etmişəm" demək ola bilər. Eyni zamanda bu, nikahımızda məhəbbəti canlı saxlamaq üçün ən qiymətli sözdür. Bunu necə edə bilərik? Aşağıda həyat yoldaşınızdan üzr istəmənin dörd addımı təqdim olunur.

**A. <u>ÖZÜNÜZÜ AŞAĞI TUTUN</u>.** Sözdə və ya əməldə yanlış etdiyinizi öz qarşınızda və Allahın qarşısında boynunuza alın. Hamının qüruru var və əgər siz nikahınızda Allahın yolunu tutmaq istəyirsinizsə, qürurunuzu sındırmalısınız. Səhv edəndə özünüzü aşağı tutmaq və öncə öz qarşınızda, sonra Allahın və axırda həyat yoldaşınızın qarşısında günahı boynunuza almaq istəmirsinizsə, həyat yoldaşınızla Allahın istədiyi kimi yaxşı münasibət qura bilməzsiniz.

**B. <u>ALLAHA VƏ HƏYAT YOLDAŞINIZA GÜNAHINIZI ETİRAF EDİN.</u>** Allaha günahınızı etiraf edəndə inanmalısınız ki, Onun əfvini qəbul etmisiniz. 1 Yəhya 1:9-da yazılmışdır ki, əgər biz "günahlarımızı etiraf ediriksə, Allah sadiq və ədalətli olduğu üçün günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcək." Buna inanırsınızmı? Növbəti addıma keçməmişdən əvvəl əmin olun ki, Məsihin bütün günahlarınızı bağışladığına inanırsınız. Bunu imanla qəbul edin.

Ondan sonra səhvinizi *<u>konkret deyərək</u>* həyat yoldaşınıza etiraf etməlisiniz. Bəzi misallar bunlardır: "Bu gün səninlə əsəbi danışdım; səni sözlərimlə incitdim." "Sənə __________ deyəndə yalan danışdım." "Hirsimdən səni vurdum. Bu, səhv hərəkət idi." "Sənin haqqında qohumlarının qabağında o pis şeyləri deməklə sənə qarşı hörmətsizlik elədim. "Yaxud "Sənə sadiq qalmadım." **<u>Öz</u> günahınıza görə bütün məsuliyyəti boynunuza götürün!** Ümumi şəkildə danışmayın... məsələn: "Mən pis ərəm və ya arvadam!" Həyat yoldaşınız sizinlə razılaşa bilər, amma bu sizə konkret günahdan azad olmaqda kömək etməz. Həyat yoldaşınıza da yanlış sözünüzə və ya əməlinizə görə inciklikdən azad olmaqda kömək etməz. Günahınız haqqında konkret danışmaq vacibdir.

Həm də belə bir zamanda <u>onun</u> günahından danışmayın. Məsələn, belə deməyin: "Sənə söyüş söyməyim, üstünə qışqırmağım səhvdir, bilirəm, amma sən də mənə eyni şeyləri söylədin!" Həyat yoldaşınızın səhvini

Allahın əllərinə buraxın. Siz yalnız öz söz və əməlləriniz üçün məsuliyyət daşıyırsınız. Çox vaxt görəcəksiniz ki, siz özünüzü aşağı tutub günahınızı etiraf edəndən sonra həyat yoldaşınız da öz əməllərindən xəcalət çəkib sizdən üzr istəyəcək. O zaman münasibətlərinizdə çox gözəl şəfa dövrü başlaya bilər. Lakin həyat yoldaşınız öz günahını etiraf etməsə belə, siz Müqəddəs Ruha yol verin ki, Öz vaxtında işini görsün. **Siz başqasını dəyişdirməyə qadir deyilsiniz, yalnız özünüzü dəyişdirməyə gücünüz çatar!**

**Bir xəbərdarlıq:** Həyatınızda həyat yoldaşınızın bilmədiyi gizli bir günah varsa, etirafınız onun üçün böyük bir şok ola bilər. İlk reaksiyası qəzəb və inciklik ola bilər. Məsələn, əgər siz zina etmisiniz yaxud pornoqrafiya asılılığınız varsa, bu xəbər ərinizə və ya arvadınıza çox ağır gələ bilər. Lakin "nurda gəzmək" çox mühümdür. (Bax: 1 Yəhya 1:5-7.) Belə bir günaha görə həyat yoldaşınızdan üzr istəməzdən əvvəl Allahdan ona lütf verməsini istəyin. Növbəti addımda göstərildiyi kimi, həlim olun və onunla səbirli davranın.

**C. ÜZR İSTƏYİN.** Həyat yoldaşınızdan üzr istəmənin ən yaxşı yolu "Məni bağışlayarsan?" deməkdir. Bu, cavab verə biləcəkləri konkret sözdür. Sonrası ona qalır: ya "Bağışlayıram" deyəcək və bağışlayacaq, ya da bağışlamayacaq. Həyat yoldaşınızın "Bağışlayıram" deməsinin son dərəcə çətin ola biləcəyini anlamaq mühümdür. Xüsusilə əgər zina kimi ağır bir günah etmisinizsə və ya dəfələrlə eyni günaha görə üzr istəmisinizsə, bu, son çətin ola bilər. Əgər o sizi bağışladığını dərhal deyə bilməsə, gözləyin və Rəbbin ona kömək etməsi üçün dua edin. Eyni zamanda növbəti addıma da çox ciddi yanaşmalısınız.

**D. DƏYİŞİN.** Təkrar-təkrar eyni günahı etməyin, "tövbəyə layiq bəhrə verin." (Matta 3:8) Həmçinin Qalatiyalılara 5:16-25-i oxuyup dərindən düşünün. Allah sizdən tələb etmir ki, dişlərinizi sıxıb özünüzü dəyişdirəsiniz. Bunun əvəzinə, bütün günahlarınızın aradan götürülməsi üçün İsanın qurbanına ürəkdən güvənin. Hər gün Allahın sizi Müqəddəs Ruhla doldurması və sizdə Ruhun səmərəsini yaratması üçün dua edin. Həyatınızdakı pis adətləri dəyişdirməyə ciddi yanaşdığınızı həyat yoldaşınıza sübut edin.

Allahın Ruhunun köməyi ilə hirsinizi və dilinizi saxlamağı, həqiqəti danışmağı, fikirlərinizdə belə sadiq qalmağı, sizi günaha çəkən insanlardan və yerlərdən uzaqlaşmağı öyrənə bilərsiniz.

*"Ona görə də qoymayın ki, günah sizin fani bədəninizə hökmranlıq etsin və siz də bədəninizin ehtiraslarına itaət edəsiniz. Bədəninizin*

*üzvlərini də haqsızlıq aləti olmaq üçün günaha təslim etməyin; əksinə, özünüzü ölülər arasından dirilənlər kimi Allaha, bədəninizin üzvlərini də salehlik aləti olmaq üçün yenə Allaha təslim edin. Günah sizə hökmranlıq etməyəcək, ona görə ki siz Qanun altında deyil, lütf altındasınız". (Romalılara 6:12-14)*

Bu ayələrə əsasən, həyatımızdakı pislikdən azad olmaq üçün fəal olaraq nə etməliyik, hansı rolu oynamalıyıq?

Günahın sizə hakim olmadığını, qanun altında deyil, lütf altında olduğunuzu bilmək sizi necə ruhlandırır?

## 2. BAĞIŞLAMAQ

Həyat yoldaşınız sizə yaxınlaşıb günahını etiraf edərək sizdən üzr istəyəndə siz dərk etməlisiniz ki, o, son dərəcə çətin bir şey edir. Ona verdiyiniz reaksiya çox mühümdür. Belə hallarda yadda saxlanmalı bəzi önəmli məqamları nəzərdən keçirək.

**A. HƏYAT YOLDAŞINIZA QULAQ ASIN; ONA TAM DİQQƏTİNİZİ VERİN!** Qab yumağa, yaxud başqa bir işlə məşğul olmağa davam etməyin. Ona hörmət göstərin. İşinizi dayandırın və diqqətlə qulaq asın. Münasibətinizin möhkəm olması bütün başqa işlərinizdən daha önəmlidir. Onun təkcə sözlərini deyil, **ürəyini eşitməyə** çalışın. Onun sözləri kamil olmaya bilər, o əsəbi ola bilər, ancaq əsas sual budur ki, o sizə nə söyləməyə çalışır?

**B. ALLAHIN MƏRHƏMƏTİNƏ OLAN EHTİYACINIZI YADDA SAXLAYIN.** Belə qürurlu fikirlərə qarşı durun: "Sən necə də pis adamsan! Mənsə yaxşıyam. Mən sənin kimi əsla hərəkət etməzdim!" Keçən dərslərin birində öyrəndiyimiz məsəldən əsla ödəyə bilməyəcəyi borcu bağışlanan qulu düşünün. Hamımız o qulun yerindəyik. (Matta 18:32-33-ü oxuyun.) Allah bizi tamamən bağışlayıbsa, biz necə bir-birimizə mərhəmət göstərməyək?

*Beləliklə, Allahın seçilmişləri, müqəddəsləri və sevimliləri kimi ürək mərhəməti, xeyirxahlıq, itaətkarlıq, həlimlik və səbirə bürünün. Bir-birinizə dözün və birinizin digərindən şikayəti varsa, bağışlayın. Rəbb sizi bağışladığı kimi siz də bağışlayın. Bütün bunlardan əlavə, kamil birliyin bağı olan məhəbbətə bürünün. (Kolosselilərə 3:12-14)*

**C. BAĞIŞLADIĞINIZI DİLİNİZLƏ TƏSDİQ EDİN.** Belə demək yaxşıdır: "Bunu mənə dediyinə görə çox sağ ol. Səni bağışlayıram. Səni sevirəm".

**ANCAQ DEMƏYIN KI,**

"Önəmli deyil!" Çünki bu, səhv bir sözdür. Əgər həyat yoldaşınız sizdən üzr istəməyə gəlibsə, demək, onun fikrincə bu önəmlidir.

**YAXUD BELƏ DEMƏYIN:**

"Artıq bundan danışmayaq. Bunu yadından çıxart! Olan olub, danışmağın mənası yoxdur!" Həyat yoldaşınızın bundan danışmağa ehtiyacı var. Onu bağışladığınızı dilinizdən eşidərək təqsirkarlıq hissindən azad olmağa ehtiyacı var və siz dərk etməlisiniz ki, keçmişiniz bağışlama yolu ilə Allaha buraxılana qədər sizə təsir etməyə davam edəcək.

**YAXUD BELƏ DEMƏYIN:**

"Allah bağışlasın". Əlbəttə ki, biz Allahın onu bağışlamasını istəyirik, lakin İsa öyrədir ki, BİZ bağışlayaq. Əgər incidilən tərəf BİZ olmuşuqsa, bağışlayan tərəf də BİZ olmalıyıq.

*HƏYAT YOLDAŞINIZIN ONU BAĞIŞLADIĞINIZI DİLİNİZDƏN EŞİTMƏYƏ EHTİYACI VAR!*

**D. ÖZÜNÜZDƏN VƏ ALLAHDAN SORUŞUN: "MƏNİM DƏ BUNDA BİR QƏDƏR TƏQSİRİM VARMI?"** Məsələn, ər arvadın üstünə qışqırıb, ona pis sözlər deyibsə, bəlkə, bunun səbəbi təkcə kişinin pis xasiyyətində deyil. Bəlkə arvadın ona irad tutduğuna, onu tənqid etdiyinə görə bu hadisə baş verib. Bu, kişiyə haqq qazandırmaz, ancaq qadın ərinə hörmət etməməyinin də yanlış hərəkət olduğunu dərk etməlidir. Çox güman ki, o da nəyəsə görə ərindən üzr istəməlidir. Həlim və açıq ürəklə Allaha qulaq asın, Onun sizə demək istədiyini eşitməyə hazır olun.

**E. YADDA SAXLAYIN Kİ, BAĞIŞLAMA 100% QƏBUL DEMƏKDİR!** Həyat yoldaşınıza yenidən güvənə bilməyiniz üçün vaxt lazım ola bilər, lakin siz onu bağışlayanda ürəyinizi ona açırsınız. Sizin mərhəmətiniz onun böyüməyinə imkan verir. Münasibətiniz qanun deyil, lütf üzərində qurulmalıdır. Məsih sizə lütf verdiyi kimi, siz də ona lütf verin. (Allahın bizə verdiyi misala baxın: Zəbur 103:8-12 və eləcə də Romalılara 15:7)

*Rəbb rəhmli və lütfkardır, hədsiz səbirli və bol məhəbbətlidir. Həmişə töhmətləndirməz, qəzəbi sonsuza qədər sürməz. Bizimlə günahlarımıza görə davranmaz, təqsirlərimizin əvəzini çıxmaz. Çünki göylər yerdən nə qədər ucadırsa, Ondan qorxanlara olan məhəbbəti o qədər böyükdür. Nə qədər şərq qərbdən uzaqdırsa, qanunsuzluqlarımızı bizdən o qədər uzaqlaşdırıb. (Zəbur 103:8-12)*

*Məsih sizi qəbul etdiyi kimi siz də Allahın izzəti üçün bir-birinizi qəbul edin. (Romalılara 15:7)*

Həyat yoldaşınızı bağışladıqdan sonra səhv işindən artıq heç vaxt danışmayın. Bu iş keçmişdə qalsın deyə onu Allahın əllərinə buraxın. Allaha güvənin ki, keçmiş şeylər ağlınıza gələn hər dəfə bunları Allaha buraxdıqca O hisslərinizi də dəyişdirəcək.

**F. BİRLİKDƏ DUA EDİN** bir-birinizin zəif cəhətlərinizə görə. Nikahınıza görə dua edin - birlikdə! Siz inanırsınız ki, Allah bu dualarınızı eşitmək və sizə cavab vermək istəyir? O, şübhəsiz, bunu istəyir! İNANIN. Tez-tez birlikdə belə dua edin: "Bizi sınağa çəkmə, lakin bizi şər olandan xilas et".

**Yadda saxlayın ki**, bağışlamamaq ***nikahları dağ ıdır***; bağışlama ***nikahları bərpa edir*** və həyatımıza Allahın məhəbbətini gətirir, gözlərimizi Allahın yollarına açır.

# 7. ÜRƏYINDƏ SEVGI OLMAYAN ZAMANLARDA BELƏ SEVMƏ QƏRARI

## *Nikahda mübahisələrin həlli*

**Bu dərsə başlamazdan əvvəl,**

Keçən həftə niyə bağışlamanın nikahda bu qədər önəmli olduğu haqqında dəftərinizə yazdığınız şeyləri bir neçə dəqiqə müzakirə edin.

**Müzakirə üçün suallar:**

Sizcə, ömrünüzün axırına qədər davam edəcək olan həqiqi məhəbbətin hansı xüsusiyyətləri var?

**Giriş:**

Bu gün bir çox insan üçün məhəbbət hər şeydən əvvəl bir hissdir. Məhəbbət haqqında qoşulan mahnılar və şeirlər, "aşiq" olan gənclərin alışıb-yandıqları romantik hissləri tərənnüm edir. Həqiqətsə belədir ki, hisslər gələn-gedəndir. Hər nikahda ərin, arvadın və ya hər ikisinin bir-birinə qarşı məhəbbət hiss etmədikləri zamanlar olur. Məgər bu o deməkdir ki, məhəbbət yox olub və insan özünə ona qarşı romantik hissləri olan yeni bir yoldaş tapmalıdır?

1 Korinflilərə 13-cü fəsildə Paul korinfli imanlılara həqiqi məhəbbəti və onun davranışlarını təsvir edir, hisslərdən qat-qat dərin olan, fədakarlıq tələb edən bir məhəbbətin gözəl bir rəsmini çəkir. Bu, Allahın bizə İsa Məsihdə göstərdiyi məhəbbət növüdür.

**1 Korinflilərə 13:4-7-ni oxuyun.**

1. Bu 4 ayəni təkrar oxuyun. Dəftərinizdə iki siyahı yazın. Birincisində məhəbbətin müsbət formada bütün etdiklərini sadalayın. İkincisində isə məhəbbətin mənfi formada bütün etmədiklərini sadalayın.

   Yazdığınız müsbət şeylərin siyahısını nəzərdən keçirin. Siz bu şeylərin hər birində böyüsəniz, bu, nikahınıza necə təsir edəcək?

2. Yazdığınız mənfi şeylərin siyahısını nəzərdən keçirin. Bu sevgisiz xüsusiyyətlərdən hər hansı birində təqsirkarsınızmı?

3. Yuxarıdakı ayələrə təkrar nəzər salın. Bunlarda məhəbbətin romantik hiss olduğuna bir işarə görürsünüzmü?

   Sizcə, ürəyimizdən gəlməsə belə, bu "məhəbbət rəftarları"nı seçə bilərikmi? Cavabınızı izah edin.

4. İndi 4-7-ci ayələri təkrar oxuyun, ancaq "məhəbbət" sözünü öz adınızla əvəz edin. Məsələn, "(Rəna/Ümid) səbirli, xeyirxahdır. (Rəna/Ümid) paxıllıq etməz, öyünməz və s. ..." Belə oxuma qulağınıza necə gəlir?


Mündəricat

5. Hər nikahda mübahisələrin yarandığı zamanlar olur. Şübhəsiz ki, həyat yoldaşınıza qəzəblənəcəyiniz zamanlar da olacaq. Aşağıdakı ayələri oxuyun.

*"Qəzəblənərkən günah işlətməyin. Günəş batmazdan əvvəl qəzəbinizi soyudub iblisə yer verməyin". (Efeslilərə 4:26-27)*

Qəzəblənmək və eyni zamanda günah işləməmək necə mümkündür? 1 Korinflilərə 13:4-7-ni təkrar oxuyun. Bu prinsiplərə riayət etməyiniz sizə mübahisə zamanı günah etməməkdə necə kömək edə bilər?

6. Sizcə, nə üçün axşam yatmağa getməmiş qəzəbdən qurtulmaq yaxşıdır? Əks halda iblisə necə yer verə bilərsiniz?

(**Qeyd:** Mübahisənin həlli bəzən uzun vaxt çəkər və siz axşamdan əvvəl razılığa gəlməyə bilərsiniz. Bununla belə, problem həll olunmasa da, lazım gəldikdə bir-birinizi bağışlaya bilərsiniz və ikiniz birlikdə dua edib problemi Allahın əllərinə verə bilərsiniz.)

7. Aşağıdakı ayələri oxuyun.

*Bütün Qanun tək bir sözdə tamamlanır: «Qonşunu özün kimi sev». Əgər siz bir-birinizi didib-yeyirsinizsə, ehtiyatlı olun ki, bir-birinizi tələf etməyəsiniz. (Qalatiyalılara 5:14-15)*

Evli cütlüklər arabir necə "bir-birini dedib-yeyirlər"? Belə halda nə baş verir? Bunun əvəzinə nə etməlidirlər? (14-cü ayə)

**İndi isə ailədə məhəbbət ab-havasının qorunub-saxlanmasında dilin rolundan bəhs edək.**

8. Aşağıdakı ayələri oxuyun.

*Həlim cavab hirsi yatırar, sərt söz qəzəbi alovlandırar. (Süleymanın Məsəlləri 15:1)*

*Şəfa gətirən dil həyat ağacıdır, əyri dil ürək qırar. (Süleymanın Məsəlləri 15:4)*

*Ölüm və həyat dilin əlindədir, onu sevənlər barından yeyir. (Süleymanın Məsəlləri 18:21)*

*Düşünmədən danışanın dili qılınc kimi yaralar, Hikmətlinin dili isə insanları sağaldar. (Süleymanın Məsəlləri 12:18)*

*Ağzını açanda hikmət axır, dilindən sədaqət təlimi çıxır. (Bu ayə, "xeyirxah arvad"dan bəhs edir; Süleymanın Məsəlləri 31:26)*

*Davakar, deyingən arvadla yaşamaqdansa çöllükdə yaşamaq yaxşıdır. (Süleymanın Məsəlləri 21:19)*

Yuxarıdakı ayələri təkrar oxuyun. Dəftərinizdə iki siyahı yazın. Birincisində sözlərinizin ailənizdə yarada biləcəyi bütün müsbət təsirləri; ikincisində isə mümkün mənfi təsirlərini sadalayın.

9. Sonra iki siyahınızı müqayisə edin. Bu ayələrin bizə nə və necə söylədiyimiz haqqında nə öyrətdiyini müzakirə edin.

10. Aşağıdakı ayələri oxuyun.

*Beləliklə, ey sevimli qardaşlarım, qoy hər bir adam eşitməkdə cəld, söz söyləməkdə təmkinli və qəzəblənməkdə də təmkinli olsun. Çünki insanın qəzəbi Allahın salehliyini hasil etmir. (Yaqub 1:19-20)*

Bu ayələri təkrar oxuyun. Yaqub bizə hansı üç şeyi etməyi öyrədir?

Hər cütlük mübahisə zamanı bu məsləhətə əməl etsəydi, sizcə, pis davalardan necə qaça bilərdi?

11. Paulun efeslilərə yazdığı sözlər (aşağıda), ər-arvadın bir-biri ilə necə rəftar etməli olduğunu yaxşı yekunlaşdırır.

*Qoy hər cür kinlə birlikdə acılıq, hiddət, qəzəb, çığırtı, böhtançılıq büsbütün sizdən uzaq olsun. Amma bir-birinizə qarşı xeyirxah, rəhmli olun və Allah Məsihdə sizi bağışladığı kimi siz də bir-birinizi bağışlayın. (Efeslilərə 4:31-32)*

**Dua:** İndi birlikdə dua edib Allahdan istəyin ki, aranızda fikir ayrılığı olduqda belə, əməldə bir-birinizə təmiz, fədakar məhəbbət göstərməkdə sizə kömək etsin.

## Növbəti dərsdən əvvəl…

... bir az öncə 1 Korinflilərə 13-dən məhəbbətin nə olduğu, nə olmadığı barədə yazdığınız siyahılara təkrar baxın. Bu xüsusiyyətlərdən hansılarında böyüməli olduğunuzu duada Rəbdən soruşun. Əlbəttə, hamımız ömür boyunca bütün bu xüsusiyyətlərdə böyüyəcəyik, lakin Allahın indi diqqətinizi cəlb etdiyi bir-iki xüsusi məqam varmı?

- Allahın sizə necə dəyişməkdə kömək etməsini istədiyinizi dəftərinizdə yazın. Bu məqamlarda böyüməkdə sizə kömək etməsini Allahdan rica edin.

İndi isə dil haqqında yazdığınız siyahıları nəzərdən keçirin. Danışığınızda dəyişdirməli olduğunuz şeylər varmı?

- Danışığınızı necə dəyişdirmək istədiyinizi həmçinin dəftərinizdə qeyd edin və bunlara görə dua etməyə vaxt ayırın.

Bundan əlavə, bu dərsdə mübahisələrin həlli üçün atılacaq addımları göstərən **aşağıdakı iki misalı oxuyun**.

- Bu misallara dair hər hansı fikirlərinizi və ya suallarınızı dəftərinizdə yazın və növbəti dərsdə bölüşün.

**(Növbəti dərsə gələndə dəftərinizi və Müqəddəs Kitabınızı gətirməyi unutmayın.)**

# NIKAHDA YARANAN MÜBAHISƏLƏRI NECƏ HƏLL EDƏ BILƏRIK?

Məhəbbətin 1 Korinflilərə 13-də təsvir olunan bütün xüsusiyyətləri hamımızın həyatında olsaydı, ailələrimizdə əsla mübahisələr olmazdı! Təəssüf ki, buna heç kəs qadir deyil. Buna görə biz bilirik ki, birgə həyatımızda bir-birimizi incitdiyimiz, aramızdakı fikir ayrılığı və mübahisənin həll yolunu görmədiyimiz vaxtlar olacaq. Belə vaxtlarda bir-birimizi kin dolu sözlərlə və hətta zorakılıqla yaralamamaq, yaxud nikahı pozmamaq üçün nə edə bilərik? Partlamadan hisslərinizi ifadə etməyin bir yolu varmı? Münasibətlərimizin inkişaf etməsi üçün həqiqəti danışmağın bir yolu varmı? Ailədə mümkün mübahisə və həll yollarının iki misalına nəzər salaq.

## 1-Cİ MİSAL: Ər və arvad bir-birinə qarşı inciklik və ya qəzəb hisslərinə necə qalib gələ bilərlər?

Nazim və Əzizə ər-arvaddırlar. Əzizə yaxşı arvad olmağa çalışır, lakin çox yaxşı yemək bişirə bilmir və özünün də bundan xəbəri var. Qayınanasının evində yemək yeyərkən əri həmişə anasının bişirdiyi ilə Əzizənin bişirdiyi arasında müqayisələr aparır. Tez-tez xırda zarafatlar eləyir və hamı gülür. Ancaq Əzizə özünü alçalmış hiss edir. Allaha dua edəndə Nazimi bağışladığını söyləyir, amma ərinin bu hərəkəti təkrarlaması Əzizənin ürəyində getdikcə dərin inciklik hissini əmələ gətirir. Axırıncı dəfə bu hərəkətinə görə 3 gün onu dindirməmişdi. Əzizə İsanın şagirdi olaraq düzgün davranmadığını bilir, ancaq bilmir, inciklik və qəzəb hissləri ilə necə bacarsın. Axırda qərara gəlib ki, ərinin üstünə qışqırmaqdansa susmaq yaxşıdır.

Nikahında tez-tez yaranan bu vəziyyətdə Əzizə nə etməlidir? Nazim onu anası ilə müqayisə edərkən ürəyində ona qarşı yaranan mənfi hisslərlə bacarmanın yalnız iki yolunu tanıyır.

1. O, qəzəbinə yol verib partlaya bilər. Ərinin üzünə yaralayıcı sözləri bərkdən qışqırmaqla bu vəziyyətdə hisslərini bildirə bilər. Ancaq bunun xeyri olacaqmı?
2. Çəkdiyi əziyyətdən danışmadan buna görə dua edə bilər. Belə hərəkət bəzən ruhani görünə bilər, lakin əri sözlərinin onu nə qədər incitdiyini bilmirsə və o heç nə demirsə, vəziyyət necə dəyişə bilər? Əzizənin ürəyində və həmçinin nikahlarında bir şey ölməyə başlayacaq. Çox güman ki, ərinə hörməti azalar və bəlkə də ona həqarətlə baxmağa başlayar. Ola bilər ki, boşanmazlar, bir evdə yaşamağa davam edərlər, amma bir-birindən soyuyarlar.

**Nikahda canlı və <u>möhkəm dostluğa</u> aparan başqa bir yol varmı?**

**BƏLİ, VAR!** Ər-arvadın hər ikisi də bir-birini dinləmək və birgə böyümək barədə razılığa gələndə, xoşbəxt nikah üçün böyük imkan yaranır. Üçüncü yolla siz həm qəzəblə partlamaqdan, həm də inciyib susmaqdan azad olacaqsınız.

3. Əzizə mənfi hisslərini <u>həqiqi məhəbbət</u> ilə ifadə etməyi öyrənə bilər. Bunun üçün o, Nazimi dəyişməyə məcbur etmək əvəzinə öz ehtiyaclarını və hisslərini başa düşməyinə kömək edəcək. Məhəbbətlə həqiqəti danışacaq. Amma bunu necə edəcək?

**Əzizənin problemi ifadə etmək, Nazimin də buna məhəbbətlə cavab vermək üçün ata biləcəkləri bəzi addımlara baxaq.**

## 1) <u>YAXŞI VAXT SEÇİN</u>

Əzizə əri ilə təklikdə danışmaq üçün münasib vaxt seçməyə çalışmalıdır. Onunla çox önəmli bir şey haqqında danışmaq istədiyini deməlidir. Yorğun halda olmadıqları və uşaqlarının yanlarında olmadıqları bir vaxt yaxşı olar. Bəlkə bir gecə uşaqlarını daha tez yatızdıra bilərlər. Bu həmçinin Əzizənin ərinə hirsləndiyi, hirsindən yandığı vaxt *olmamalıdır*. Sakitləşəndən sonra bir vaxt seçməlidir.

## 2) <u>ƏZİZƏ DANIŞIR</u>

Əzizə Nazimə sakit bir səslə, açıq və səmimi şəkildə öz hisslərini anlatmalıdır. (Süleymanın Məsəlləri 15:1 və 4) <u>Onu bilə-bilə pis davranmaqda günahlandırmamalıdır</u>. O bilmir, ərinin ürəyində nə var. O, ərinə yalnız bacarığını anasınınkı ilə müqayisə edib zarafata salmasının ona necə təsir etdiyini söyləməlidir.

## 3) <u>NAZİM QULAQ ASIR</u>

Nazim onun demək istədiyi *hər şeyə* qulaq asmalıdır və özünü müdafiə etmək üçün <u>sözünü kəsməməlidir</u>. (Yaqub 1:19-20) Bəlkə o, səhv bir şey etmədiyini hiss edir. Lakin arvadı bundan əziyyət çəkir. Nazim nikahının yaxşı olmasını istəyirsə, bunu anlaması vacibdir. Qulaq asarkən o, Allaha dua etməlidir ki, öz arvadı ilə rəftarında məhəbbət göstərmədiyi məqamları ona göstərsin.

## 4) <u>NAZİM DANIŞIR VƏ ƏZİZƏ QULAQ ASIR</u>

Əzizə ürəyində olanları Nazimə danışandan sonra Nazimin danışmasına imkan verməlidir. <u>Onun sözünü kəsməməli</u>, amma dediklərinə tam cavab verməyinə icazə verməlidir. Nazim də sakit danışmaq və Əzizəni günahlandırmamaq üçün ehtiyatlı olmalıdır. Əzizə qulaq asarkən öz növbəsində harada səhv etdiyini Allahdan

soruşmalıdır. Bəlkə o, həddən artıq həssasdır və öz hərəkətlərinə gülməyi bacarmalıdır.

5) **MÜZAKİRƏ, BAĞIŞLAMA VƏ DƏYİŞMƏ**

Ər-arvadın hər ikisinə ürəyində olanları səmimiyyət və məhəbbətlə bölüşmək imkanı veriləndən sonra onlar bu vəziyyəti müzakirə etməyə başlaya bilərlər. Onlar yenə də yadda saxlamalıdırlar ki, sakit olmaq, bir-birinin sözünü kəsməmək və bir-birini günahlandırmamaq lazımdır. (Yaqub 1:19) Hər ikisi gördükləri səhvlərinə görə üzr istəməyə və bağışlamağa hazır olmalıdırlar. Həmçinin lazım olan hər cəhətdən dəyişilməyə hazır olmalıdırlar.

6) **DUA**

Müzakirə zamanının sonunda bir-birinə və nikahlarına görə dua etməlidirlər. Hələ problemi həll edə bilməyiblərsə, ayrı-ayrılıqda düşünüb dua etməli, bir neçə gün sonra isə təkrar bundan söhbət etməlidirlər. Həm ər, həm də arvad, razılığa gəlməsələr belə, bir-birinə məhəbbət göstərməlidir. (1 Korinflilərə 13:7)

Əlbəttə, Əzizənin bir hərəkəti Nazimi hirsləndirir və ya incidirsə, Nazim də yuxarıda təsvir edilən eyni yolla ona yanaşmalıdır. Nazim və Əzizə mübahisənin həllinə aparan yolda bu addımları atmaqda bir-birinə kömək etməlidirlər.

**Bu misaldan gördüyümüz kimi, ər-arvaddan biri o birinə incikliyini və ya narazılığını bildirməyə ehtiyac duyduğu vaxt mübahisənin həlli üçün bu prosesdən istifadə oluna bilərlər. Həll edilməsi çətin olan mübahisələrdə eyni addımlar atıla bilər. İndi ikinci misala baxaq.**

## 2-Cİ MİSAL: Evli cütlüklər mübahisələrini necə həll edə bilərlər?

Nazim və Əzizə maşın almaqdan söhbət edirlər. Əzizə iki balaca uşaqla avtobusa minməkdən yorulub, buna görə də indi maşın almaq istəyir. Məsələ orasındadır ki, indi maşın almağa kifayət qədər pulları yoxdur. Əzizə düşünür ki, dostlarından borc almaq və ya bankdan kredit götürmək lazımdır. Nazim maşın almaq haqqında onunla razılaşsa da, pulun tamamını əldə edənə qədər gözləmək istəyir. Borcu qaytara bilməyəcəklərinə görə narahatdır və çox faiz ödəmək istəmir. Bu mövzuda onların arasında tez-tez mübahisələr baş verir. Əzizə, Nazimin onun ehtiyaclarına laqeyd yanaşdığını zənn edir, Nazim isə Əzizənin məhdud pullarından müdrikcə istifadə etmədiyini düşünür. Onlar qızğın mübahisələrdən qurtarıb hər ikisi

üçün də məqbul olan bir razılığa çatmaqdan ötrü nə edə bilərlər, hansı addımlar ata bilərlər?

### 1) YAXŞI VAXT SEÇİN.

Onlar yuxarıdakı 1-ci addımı ataraq problemi müzakirə etmək üçün **heç nəyə yayınmayacaqları sakit bir vaxt** seçməlidirlər.

### 2) EFESLİLƏRƏ 5:22 VƏ 25-İ YADDA SAXLAYIN.

Öz aralarında razılığa gələ bilmədikləri bir şeyin qarşısında onların hər ikisi **Efeslilərə 5:22 və 25-də Paulun verdiyi nəsihətlərini yadda saxlamalıdırlar.**

*Ey qadınlar, Rəbbə tabe olduğunuz kimi ərlərinizə tabe olun (22-ci ayə)*

*Ey ərlər, Məsih imanlılar cəmiyyətini sevib onun uğrunda Özünü fəda etdiyi kimi siz də arvadlarınızı sevin. (25-ci ayə)*

Onlar problemi müzakirəyə gələndə buna hansı münasibət göstərməlidirlər? Onların ikisi də bu nəsihətləri yadda saxlasa, bu onlara problemi həll etməkdə necə kömək edəcək?

### 3) NÖVBƏ İLƏ DANIŞIN VƏ QULAQ ASIN.

1-ci Misaldakı kimi, onların hər ikisi bir-birinin sözünü kəsmədən başqasının ürəyidəkini axıra qədər söyləməsinə imkan verməlidir. (Bunun üçün qulaq asan tərəfin özünə hakim olması vacibdir!) Hər ikisi də sakitcə danışmalı və başqasını günahlandırmamalı. (Bunun üçün danışan tərəfin özünə hakim olması vacibdir!)

### 4) DUA EDİN.

Vəziyyətə görə **birlikdə dua** etməlidirlər.

- Bir şeyə ehtiyacları varsa (məsələn, maşına), Allahdan istəməlidirlər.

*Diləyin, sizə veriləcək, axtarın, tapacaqsınız, qapını döyün və sizə açılacaq. Çünki hər diləyən alar, axtaran tapar, qapı döyənə açılar. Aranızdan kimsə oğlu ondan çörək diləsə, ona daş verərmi? Ya da balıq diləsə, ona ilan verərmi? Beləliklə, siz pis olduğunuz halda öz övladlarınıza yaxşı hədiyyələr verməyi bilirsinizsə, göylərdə olan Atanızın Ondan diləyənlərə gözəl hədiyyələr verəcəyi nə qədər yəqindir! (Matta 7:7-11)*

- Bir qərar barədə razılığa gələ bilmirlərsə, Allahdan müdriklik diləməlidirlər.

*Əgər sizlərdən birinin müdrikliyi çatışmırsa, hər kəsə səxavətlə və məzəmmət etmədən verən Allahdan diləsin və ona veriləcək. (Yaqub 1:5)*

Bu vəziyyətdə maddi bir ehtiyacları (maşın) olmaqla bərabər müdrikliyə də (pulu borc alsınlar, yoxsa gözləsinlər?) ehtiyacları var. Birgə dualarında hər iki ehtiyaca görə Allahdan kömək diləməlidirlər. Allah onlara qeyri-təbii yolla maşın verə bilər. Ancaq bəlkə O istəyir ki, onlar bu vəziyyətdən çox qiymətli dərs götürərək səbirlə gözləməyi və Ona güvənməyi öyrənsinlər.

Unutmayın ki, Allah ərin ailə başçısı olduğunu söyləyib. (Efeslilərə 5:23) Buna görə də, Əzizə Allahın Kəlamına əməl etmək istəyirsə, ərinə tabe olmalı, ərinin son qərarı verməsinə imkan verməlidir. Əri ilə razılaşmasa belə, Allaha güvənməli, ona əri vasitəsiylə yaxşılıq edəcəyinə inanmalıdır. Əgər o, ərinin müdrik qərar vermədiyinə lap əmindirsə, buna görə dua etsin və Allahdan əri ilə danışmasını diləsin. Allahın Kəlamı arvadlara deyinmək, dava etmək haqqını verməz.

Nazimə gəlincə, o Əzizəyə Məsihin məhəbbətini göstərmək istəyirsə, ona qulaq assın və qərar verərkən onun ehtiyaclarını da nəzərə alsın. Duada Allahdan müdrikliyi və ailəsinin təminatını diləsin, çünki o, öz ailəsinin rifahı üçün məsuliyyət daşıyır.

Ər və arvadın hər ikisi Allahın yolunu tutmağa çalışırsa, onları maraqlandıran hər şeyə görə birlikdə dua edirsə, meydana gələn mübahisələr həll olunacaq və ailədə sülh və nizam olacaq.

Yadda saxlayın: Bu, asan proses deyildir! İki əsas hissəsi **HƏLİMLİK** və həm Allaha, həm də bir-birinə **HÖRMƏTLƏ QULAQ ASMAQdan ibarətdir.** Həyat yoldaşınıza həlimliklə qulaq assanız, bəlkə də Rəbbin onun vasitəsilə danışacağını görərsiniz. Rəbbin sizi həyat yoldaşınızın çox faydalı sözləri vasitəsilə dəyişdirmək istədiyini kəşf etmək necə gözəldir!

Məhəbbət və inam belə müzakirənin hörmət dolu atmosferində artar. Uşaqlarınız da belə ailədə böyüdükcə sizə baxıb öyrənər, sizdən nümunə götürərlər. Ailədən kənarda çoxlu sınaqlarınız, problemləriniz olsa belə, ailənizin daxilində əmin-amanlıq və səadət bol olar. Siz ər-arvad kimi bir-birinizə sirdaş olarsınız və Allah həyatınızda izzətlənəcək.

# 8. ALLAHLA MÜNASIBƏTDƏ BIRGƏ BÖYÜMƏK

**Bu dərsə başlamazdan əvvəl,**

Keçən həftə Məsihə bənzər məhəbbətdə necə böyümək istədiyiniz haqqında dəftərinizə yazdığınız şeyləri bir neçə dəqiqə müzakirə edin. Həmçinin mübahisələri necə həll etmək haqqında olan hər hansı fikirlərinizi bölüşün. (5 dəqiqə)

**Müzakirə üçün suallar:**

Fikrinizcə uğurlu nikahda olan bir-iki evli cütlüyü düşünün. Sizcə, nikahlarının uğurlu olmasının səbəbi nədir? Nikahlarında gördüyünüz hansı şeyləri öz nikahınızda da görmək istəyərdiniz?

**Giriş:**

Güman ki, çoxumuz imanlıların Allahla təklikdə vaxt keçirməyin əhəmiyyəti haqqında kitablar oxumuşuq və ya təlimlərə qulaq asmışıq. Ruhumuzu qidalandırmaq və nifrət dolu bir dünyada İsanın şagirdləri kimi yaşamağa təşviq və güc tapmaq üçün buna ehtiyacımız olduğunu bilirik. İsa vasitəsilə Allahla şəxsi münasibət qurmaq bizim üçün dəyərlidirsə, Allahı sevməkdə, Ona xidmət etməkdə böyümək üçün buna mütləq vaxt ayıracağıq.

Amma öz həyat yoldaşınızla birgə Allahla qurduğunuz münasibətin də sizə gözəl mükafat verə biləcəyini heç düşünmüsünüzmü? Bu gündən etibarən həyat yoldaşınızla birlikdə yaşayıb gündəlik həyatınızı bölüşəcəksiniz. Bir-birinizi inkişaf etdirməyiniz üçün necə də inanılmaz fürsətlər var! Bunu necə həyata keçirə biləcəyinizi görməkdə sizə kömək edəcək bəzi ayələri birlikdə nəzərən keçirək.

**Kolosselilərə 3:16-17 və Efeslilərə 5:18-21-i oxuyun.** (Bunlar Paulun Məktublarından bir-birinə bənzər iki parçadır.)

*Qoy aranızda Məsihin kəlamı bütün zənginliyi ilə yaşasın. Bir-birinizə tam müdrikliklə təlim və nəsihət verin, məzmurlar, ilahilər və ruhani nəğmələr söyləyib ürəklərinizdə Allaha minnətdar ola-ola nəğmə oxuyun. Dediyiniz və etdiyiniz hər şeyi Rəbb İsanın adı ilə edin, Onun vasitəsilə Ata Allaha şükür edin.*

*Efeslilərə 5:18-21 Şərabdan sərxoş olmayın, bu sizi mənəviyyatsızlığa aparır. Bunun əvəzinə Ruhla dolun. Bir-birinizə məzmurlar, ilahilər və ruhani nəğmələr oxuyun, Rəbbə ürəkdən nəğmələr çalıb-oxuyun. Həmişə hər şeyə görə Rəbbimiz İsa Məsihin adı ilə Ata Allaha şükür edin. Məsih qorxusu ilə bir-birinizə tabe olun.*

1. Paulun imanlılara öyrətdiyi ruhani həyatda bir-birini ruhlandırmanın müxtəlif yollarını müzakirə edin. Dəftərinizdə

bunların bir siyahısını yazın. Dəftərinizdə ən azı 5-6 müxtəlif yolu sadalayın.

Bu ayələri ailənizdə necə əvvəl cütlük kimi, sonra isə Allahın verdiyi uşaqlarla birlikdə tətbiq edə bilərsiniz? Bunu birgə müzakirə etməyə bir neçə dəqiqə ayırın.

**Musanın İsrail xalqına nəsihəti**

Qanunun Təkrarı Kitabında Musa, Allahın vəd etdiyi torpağı mülk olaraq almağa hazırlaşan İsrail xalqına ciddi əmrlər verir. Musa bilirdi ki, xalq onları köləlikdən azad edən Allahın yolunu tutmaqdan asanlıqla uzaqlaşa bilər. Bu gün bizim vəziyyətimiz heç o qədər də fərqlənmir. Biz də bizi günahdan azad edən Xilaskarımızdan asanlıqla uzaqlaşırıq. Siz bir cütlük olaraq bir-birinizə və gələcəkdə uşaqlarınıza doğru yolu tutmaqda və düşmənin yalanlarına uymamaqda necə kömək edə bilərsiniz? Bundan əlavə, bir-birinizə Məsihdə böyüyüb yetkinləşməkdə necə kömək edə bilərsiniz? Musanın sözlərinə baxaq.

2. Qanunun Təkrarı 6:5-9-u oxuyun.

   5-ci ayəni təkrar oxuyun. Allahı sevməli olduqları məhəbbəti təsvir edin. (Matta, Mark və Lukaya görə, İsa bu ayəni ən önəmli əmr olaraq sitat gətirmişdir.)

3. Xalq, Musanın verdiyi bu əmrlərlə nə etməli idi? (6-8-ci ayələr)

4. 7-ci ayəyə təkrar baxın. Allahın sözlərindən danışacaqları bütün vaxtları sadalayın.

   Bu ayələrə əsasən, valideynlərin həqiqəti gələcək nəslə ötürməkdə məsuliyyətləri nədən ibarətdir?

5. Sizcə, Musanın bu ayələrdə İsrail xalqına verdiyi əmrləri bu gün hələ bizim üçün qüvvədədirmi? Həm uşağınız olmamışdan əvvəl, həm də olandan sonra bu ayələri öz ailənizdə necə tətbiq edə biləcəyinizi müzakirə etməyə bir neçə dəqiqə ayırın.

   Allahın kəlamını, bu ayələrdə əmr olunduğu kimi, öz ailənizdə həmişə birinci yerdə tutsanız, bu sizin ailənizə Allahı bütün qəlbi ilə sevməkdə necə kömək edəcək?

**8-ci ayə haqqında bir qeyd**

Bəzi yəhudilər bu ayəni həqiqi mənada qəbul etdilər, kiçik qutucukları düzəldib içinə Müqəddəs Yazıdan ayələri qoydular və qollarına, alınlarına bağladılar. Allahın kəlamını əzbərləmək və yadda saxlamaq üçün bunu etmək faydalı ola bilər, lakin Müqəddəs Kitab ayələrini üzərinizdə daşımaqda heç bir sehr yoxdr. Burada 6-cı ayə önəmlidir - Allahın kəlamı ürəyimizdə kök salsın, gündəlik həyatımızın ayrılmaz hissəsi kimi hər an bizimlə olsun.

6. Musanın bu əmrləri Paulun Kolosselilərə və Efeslilərə Məktublarında yazdıqlarına necə oxşayır?

İmanlı ailələr olaraq siz bir mənada toplaşdığınız böyük cəmiyyətin daxilində kiçik bir Məsih cəmiyyətisiniz.

7. İbranilərə 10:23-25-i oxuyun.

*[23]Ümid verən əqidədən möhkəm tutaq, çünki vəd verən Allah sadiqdir. [24]Bir-birimizi məhəbbətə və xeyirxah əməllər etmək üçün necə həvəsləndirmək haqqında fikirləşək. [25]Bəzi adamların vərdiş etdiyi kimi birgə yığışmağımızı tərk etməyək. Lakin qiyamət gününün yaxınlaşdığını gördükcə bir-birimizi daha çox ruhlandıraq.*

İbranilərə 10-dan bu ayələri təkrar oxuyun və ailənizə necə aid ola biləcəyini düşünün. Bütün cütlüklərdə arada ər yaxud arvad imanda zəifləyə və ya ruhdan düşə bilər. Bu ayələrə əsasən, belə vaxtlarda biz necə bir-birimizə kömək edə bilərik?

8. 24-cü ayəni təkrar oxuyun. Allahın Kəlamında yoxsulların qayğısına qalmaq, qonaqpərvər olmaq, müxtəlif ehtiyaclar içində olanlara yardım göstərmək haqqında çox şeylər yazılıb. Ailənizin diqqətini ailənin xaricinə, başqalarının ehtiyaclarına yönəltmək, həm sizə, həm də uşaqlarınıza eqoist olmamaqda kömək edəcək. Bu, əvvəlcə Allahın Padşahlığını axtarmağın mühüm bir hissəsidir. Bir ailə olaraq edə biləcəyiniz bəzi "xeyirxah əməllər"i müzakirə etməyə bir neçə dəqiqə vaxt ayırın.

**İndi evli cütlüklərin birlikdə dua etməkdə necə böyüyə biləcəklərini nəzərdən keçirək.**

9. Aşağıdakı ayələri oxuyun.

*Yenə sizə doğrusunu deyirəm: yer üzündə sizlərdən iki nəfər diləyəcəkləri hər hansı bir şey üçün razılığa gələrsə, göylərdə olan Atam onların istəklərini yerinə yetirəcək. Çünki harada iki və ya üç*

*nəfər Mənim adımla yığılarsa, Mən də orada, onların arasındayam. (Matta 18:19-20)*

*Beləliklə, günahlarınızı bir-birinizə etiraf edin və bir-biriniz üçün dua edin ki, sağalasınız. Saleh adamın duası çox güclü və təsirlidir. (Yaqub 5:16)*

Bu ayələr sizi necə ər-arvad kimi tez-tez birlikdə dua etməyə ruhlandırır? Bunlar dualarınızın nəticəsində nə olacağını deyir?

10. Filipililərə 4:6-7-ni oxuyun.

*Heç nəyin qayğısını çəkməyin, amma hər barədə xahişlərinizi Allaha dualarla, yalvarışlarla, şükür edə-edə bildirin. Onda Allahın ağlagəlməz sülhü ürəklərinizi və düşüncələrinizi Məsih İsada qoruyacaq.*

Əgər siz bu ayələri Matta 18-dən və Yaqub 5-dən yuxarıda sitat gətirilən ayələrlə birlikdə tətbiq etsəniz (duada razılığa gəlsəniz və bir-biriniz üçün dua etsəniz), bu, ailənizdə sülh və əmin-amanlıq ab-havasını yaratmağınıza necə kömək edəcək?

**Dua:** Aşağıdakılar, ər-arvad olaraq və daha sonra uşaqlarınızla birlikdə bir ailə olaraq Allahın kəlamını və Ruhun həyatını daima gözlərinizin önündə tutmaq üçün sizə təklif olunan bir neçə yoldur. İndi o siyahını oxuyun. Daha sonra ər-arvad olaraq bunları konkret müzakirə edəcəksiniz. İndi dua edin ki, Allah sizə kömək olsun və siz bir-birinizi inkişaf etdirməyi və Allahın kəlamını həyatınızda birinci yerdə tutmağı öyrənəsiniz.

**Qeyd: Bu, məsihçi ailələr üçün qayda-qanun siyahısı deyildir.** Bunlar sadəcə olaraq hər ailə üzvünün ruhən böyüməyinə kömək etmək üçün bəzi ideyalardır. Vəziyyətə uyğun davranın. Hər hansı bir iş məcburi qanuna çevriləndə darıxdırıcı və yorucu olur. Həyat vermək üçün hər iş, daxilinizdə olan Məsihin həyatından, Allahı tanımaq, gündən-günə Onunla yaşamaq arzusundan qaynaqlanmalıdır.

*“Müqəddəs Yazılarda deyildiyi kimi, Mənə iman edənin daxilindən həyat suyu axan çaylar çıxacaq". Bunu Ona iman edənlərin alacaqları Ruh barədə söylədi. (Yəhya 7:38-39)*

Bu dərsdə öyrədilən ayələrin tətbiqi üçün təkliflər:

1) Evdə, maşında və s. ruhani musiqini səsləndirmək
2) Ayələri əzbərləmək, evin müxtəlif yerlərinə asmaq, yapışdırmaq və s.
3) Ailəvi ibadət və Müqəddəs Kitab oxuma və ya öyrənmə üçün xüsusi vaxt təyin etmək
4) Səhər işə/məktəbə və s. getməmişdən əvvəl Müqəddəs Kitabı oxumaq və birlikdə dua etmək
5) Gün ərzində fasilə edib, duaların konkret cavablarına görə Allaha şükür etmək
6) Gün ərzində fasilə edib, meydana gələn problem və ya ehtiyaclara görə dua etmək
7) Yeməkdən əvvəl Allaha nemətləri üçün şükür etməyə vaxt ayırmaq
8) Birlikdə ilahi oxumaq
9) İlhamverici kitabları birlikdə oxumaq
10) Evinizdə Müqəddəs Kitabın audiosuna qulaq asmaq

## Bu axırıncı dərsdən sonra...

**...** ər-arvad kimi bir-birinizi ruhən böyüməyə necə təşviq edə biləcəyinizi birlikdə müzakirə edin. Yuxarıdakı siyahını təkrar nəzərdən keçirmək istəyə bilərsiniz. O siyahıya əlavə edəcəyiniz başqa şeylər ağlınıza gələ bilər.

- Ailə həyatınızın bir hissəsi olmasını istədiyiniz şeyləri dəftərinizdə yazın.

Ürəyinizdə ər-arvad olaraq necə ruhən böyümək istədiyinizi ifadə edən dua varmı?

- Bu duanızı dəftərinizdə yazın. Bəlkə siz gələcəkdə arada bu duanı təkrar oxumaq və hətta ona bir şeylər əlavə etmək istəyərsiniz.
- Gələcək həftələrdə və aylarda nikah haqqında öyrənəcəyiniz şeyləri dəftərinizdə yazın. Eləcə də nikahınızda olması üçün dua etdiyiniz şeyləri yazın. Dəftərinizi xüsusi bir yerdə saxlayın ki, ona tez-tez baxa biləsiniz.

## *Son söz:*

İsa Məsihin ardınca gedən bütün evli cütlüklər, İsanın onların ailələri üçün mübarizə apardığını bilməli və bundan cəsarət tapmalıdırlar. İsa zəifliklərinizdən agahdır. Şeytanın sizə qarşı apardığı müharibədən agahdır. Həyatınızda hər gün üzləşdiyiniz çətinliklərdən də agahdır. Lakin Rəbb bütün bu şeylərdən böyükdür; O istəyir ki, siz həm asan günlərinizdə, həm də çox çətin günlərinizdə Ona güvənəsiniz. Siz Onu ailənizin Rəbbi olaraq qəbul etməyə qərar verəndə, O da sizə kömək edəcək ki, hər gün Onun həyatını və həqiqətini yaşayasınız. Öz ailəsinin bu dünyada Məsihin hüzurunu əks etdirməsi üçün dua edən və çalışan hər kəs özünə bu ayəni qəbul etsin:

> *Beləliklə, ey sevimli qardaşlarım, Rəbdə çəkdiyiniz zəhmətin boşa çıxmayacağını bilərək möhkəm durun, sarsılmayın, hər zaman Rəbbin işində səylə çalışın. (1 Korinflilərə 15:58)*

# Əlavə A

## Nikah əhdləri

Birinci Dərsdəki "Evlənmə şənliyi" hissəsində bəylə gəlinin əhdləşməsindən bəhs olunur. Bəylə gəlinin ailə və dostlar qarşısında bir-birinə söz verməsi yüzlərlə il bundan qabaq inkişaf etmiş qədim ənənədir. Bu əhdlər, ər və arvadın ömür boyu bir-birinə sadiq qalıb qulluq etməsi haqqında kəlamın təliminə əsaslanır. Aşağıdakı əhdlər, bəzi yerlərdə məsihçi nikah mərasimlərində söylənənlərdir. Bəylə gəlin adətən bu vədləri bir-birinə növbə ilə söyləyir - öncə bəy gəlinə bu sözləri deyir və sonra gəlin bunları bəyə təkrarlayır.

*Mən [ad] səni [ad] öz [ərim/arvadım] olaraq qəbul edirəm.*

*Xəstəlikdə və sağlamlıqda, yoxsul olsaq yaxud varlı olsaq,*

*sevincdə və kədərdə, həm yaxşı, həm pis vaxtlarda*

*həmişə sənə sadiq qalacağıma*

*bu gün ailəmizin və dostlarımızın qarşısında söz verirəm.*

*Hər ikimiz sağ ikən Allahın köməyi ilə*

*səni şərtsiz məhəbbətlə sevəcəyimə, sənə hörmət edəcəyimə*

*və səni qəlbimə yaxın tutacağıma söz verirəm.*